www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 6-7 iyul 2016-cı il Şənbə № 171 (6492) Qiyməti 60 qəpik

**Xəbər**

## Bakıda sahibkarlar torpaq üstündə bir-birini al qana boyadılar

yazısı səh.14-də

**Gündəm**

### Sərkisyan daxili və xarici siyasi problemlər məngənəsində



Ermənistan mətbuatı siyasi hakimiyyətin illərlə yürütdüyü siyasətin hərtərəfli çürüdüyünü yazır; "iqtidar resurslar planında artıq iflasa uğrayıb və tükənmə ərəfəsindədir"

yazısı səh.6-da

### Nazir Şirvandakı partlayışların səbəbini gizli saxlamaq tapşırığı verib

yazısı səh.3-də

### Banklar müştərilərini polisə verir - kütləvi qorxutma...

yazısı səh.12-də

### ANS-in tezliyində başqa kanal yayımlanır

yazısı səh.3-də

### Sahibkarlara şad xəbər: prezidentin yeni sərəncamı vergi yükünü azaldacaq

yazısı səh.10-da

### Müxalifət hansı məsələlərdə hakimiyyətin yanında ola bilər?

yazısı səh.7-də

### Avqust Qarabağ danışıqlarında sıçrayış ayı olacaqmı...

yazısı səh.11-də

### Azərbaycanlı qatil valideynlərin tükürpədici hekayələri...

yazısı səh.13-də

### Kürdəmirdə bir ailə qəzaya düşdü; sürücünün xanımı öldü

yazısı səh.14-də

### Ölkəyə keyfiyyətsiz toyuq əti gətirənlərə qarşı cinayət işi açıldı

yazısı səh.2-də

### Qızını boğub öldürən ananın iddiası yalan çıxdı

yazısı səh.14-də

## "Bu, elə bir həll variantı olmalıdır ki..."

# PUTİN BAKI SƏFƏRİ ÖNCƏSİ "QARABAĞ KARTI"NI AÇDI, RESEPTDƏN DANIŞDI

Azərbaycan KİV-lərinə ilk geniş müsahibəsində Rusiya lideri nizamlamanın "Kazan formulu" əsasında gedə biləcəyini dolayısı ilə təsdiqlədi; Kremlin özünün də çətin durumda olduğuna işarə vurdu, "strateji tərəfdaş" Azərbaycanla "strateji müttəfiq" Ermənistan arasında seçim qarşısında qaldığını etiraf elədi...



yazısı səh.5-də

# Akif Çovdarovun icra başçısına qarşı qara maskalı əməliyyatı haqda yeni təfərrüat

Sabiq MTN generalı dövlətin 800 min manatını reketçiliklə ələ keçirib; həmin vəsait Əhəd Abıyevin Daşkəsəndə tikdirdiyi körpünün pulu imiş, məbləğ hələ də geri qaytarılmayıb

yazısı səh.4-də



Rauf Arifoğlu

### Müsavat üçün 27 aprel və 27 sentyabr fəlakəti...

yazısı səh.9-da



### Ərdoğanın Moskva səfərində Qarabağ mövzusu - gözlənti

yazısı səh.8-də



Ehsan Zahidov

### DİN polkovniki AXCP sədrinə cavab verdi

yazısı səh.6-da



# Prezident Təzəpir məscidinin ətrafının abadlaşdırılmasına 5 milyon manat ayırdı

**Prezidenti İlham Əliyev Təzəpir məscidi kompleksinin ətraf ərazisinin abadlaşdırılması ilə əlaqədar tədbirlər haqqında sərəncam imzalayıb. APA-nın məlumatına görə, 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Təzəpir məscidi kompleksinin ətrafındakı yol-nəqliyyat infrastrukturunun yenidən qurulması, ərazisinin abadlaşdırılması, məscidi ziyarət edənlər üçün parklama imkanlarının yaradılması işlərinin həyata keçirilməsi üçün "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinə ilkin olaraq 5 milyon manat ayrılıb.**

Maliyyə Nazirliyinə müvafiq məbləğdə maliyyələşməni təmin etmək tapşırılıb.

# Deputatın oğluna yüksək vəzifə verildi

**Prezident İlham Əliyev Fəxri Kazımovun "Azərbaycan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri təyin edilməsi haqqında sərəncam imzalayıb Ölkə.Az-ın məlumatına görə, sənədə əsasən, Fəxri Xanhüseyn oğlu Kazımov "Azərbaycan İpoteka Fondu" ASC-nin İdarə Heyətinin sədri təyin edilib.**

Qeyd edək ki, Fəxri Kazımov parlamentin deputatı Xanhüseyn Kazımlının oğludur.

# Lənkəranskinin "sxodka"sına basqın

**Rusiyanın Ural vilayətinin güc strukturlarının əməkdaşları avqustun 4-dən 5-nə keçən gecə məşhur azərbaycanlı kriminal avtoritet Rövşən Canıyevin ("Rövşən Lənkəranski") qruplaşmasına daxil olan cinayətkar birləşmənin üzvlərinə qarşı xüsusi əməliyyat keçirib.**

Virtualaz.org xəbər verir ki, Nijniy Tagildə keçirilən iri miqyaslı xüsusi əməliyyat zamanı cinayətkar "sxodka"nın 30 iştirakçısı saxlanılıb.

Bildirilir ki, hüquq-mühafizə orqanlarına "Rövşən Lənkəranski"nin qruplaşmasının toplantı keçirəcəyinə dair informasiya əvvəlcədən daxil olub. Və ənənəvi olaraq xüsusi təyinatlılar qruplaşma üzvlərini qəfil yaxalayıblar. Əməliyyat məlumatlarına görə, saxlanılanlar reket yoluyla yerli biznesmenlərdən pul toplayan qruplaşmanın üzvləridir. "Sxodka"da yerli azərbaycanlı diasporunun bir neçə tanınmış nümayəndəsi də olub. Onların kriminal "sxodka"ya hansı məqsədlə qatıldığı aydınlaşdırılır.

Saxlanılanlardan 8-i yerli biznesmenlərdən birindən iri məbləğdə pulu reketliklə almaqda şübhəli bilinir.

Xatırladaq ki, bu il martın sonlarında Sverdlovsk vilayəti üzrə əməliyyat polisi FTX-nin yerli idarəsinin əməkdaşları ilə birlikdə azərbaycanlı kriminal ünsürlərin toplantısına basqın edib, "Rövşən Lənkəranski"nin region üzrə səlahiyyətli adamı Ağayar Ağayev və bir neçə başqa qruplaşma üzvü saxlanılıb.

# Qusara yeni polis rəisi təyin olundu

**Qusar rayon Polis Şöbəsinə (RPŞ) yeni rəis təyin olunub. APA-nın şimal bürosunun verdiyi məlumata görə, daxili işlər naziri, general polkovnik Ramil Usubovun əmri ilə Bakının Səbail rayon Polis İdarəsinin 41-ci Polis Bölməsinin rəisi Zaur Bədəlov Qusar RPŞ-nin rəisi vəzifəsinə təyinat alıb.**

Qusar RPŞ-nin keçmiş rəisi Arif Əliyev isə təqaüdə göndərilib.

"Qaya Mətbuat Yayımı" MMC!
**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Müsavat" - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**
- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.
**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**
- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Zakir Fərəcov müavininə xəbərdarlıq etdi, baş həkimi işdən çıxardı

**Sumqayıt şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov tibb müəssisələrinin rəhbər işçilərinin iştirakı ilə müşavirə keçirib. (Xeberle.com)**

Sumqayıt Şəhər İcra Hakimiyyətində keçirilən müşavirədə çıxış edən Zakir Fərəcov şəhərdə həyata keçirilən abadlıq-quruculuq işləri ilə bağlı ətraflı məlumat verib.

Şəhər rəhbəri təəssüf hissi ilə bildirib ki, şəhər səhiyyə sistemində cidi nöqsanlar mövcuddur.

Bəzi cavabdeh şəxslər, baş həkimlər vəzifələrinin öhdəsindən layiqincə gələ bilmir, işlərinə qarşı laqeyd yanaşırlar. Xüsusilə də Uşaq Xəstəxanasındakı mövcud problemlərlə əlaqədar olaraq cavabdeh şəxslərə ciddi iradlarını bildirib.



İcra başçısı baş həkimi işdən azad edib.

Sumqayıt şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov işinin öhdəsindən gələ bilməyənlərin vəzifədən kənarlaşdırılacağını, ciddi tədbirlər görüləcəyini qeyd edib. O, həmçinin müavini Teymur Səmədov a xəbərdarlıq edib, İH-nin şöbə müdiri Gündüz Əliyevə töhmət verib.

# Bakıda qadın dörd həmcinsinə qarşı dələduzluq edib

**Bakı sakini olan qadın dələduzluqda ittiham olunur. "Report" xəbər verir ki, bununla bağlı dörd nəfər - Bakı şəhər sakinləri 38 yaşlı Səbinə Əliyeva, 41 yaşlı Lyubov Kuzmina, 31 yaşlı Günay Tağıyeva və Ordubad rayon sakini 34 yaşlı Vəfa Süleymanova hüquq-mühafizə orqanlarına müraciət edib.**

Qadınlar müraciətlərində bildiriblər ki ki, 2015-ci ilin oktyabr-noyabr aylarında Bakı şəhər sakini 36 yaşlı Təranə Osmanlı onları aldadaraq S.Əliyevadan 51 min 620 manat, L.Kuzminadan 3 min avro və 3 min 300 ABŞ dolları, G.Tağıyevadan 10 min və V.Süleymanovadan 4 min manat dəyərində qızıl-zinət əşyaları alıb.

Faktla bağlı araşdırma aparılır.

# PKK-dan növbəti hücum: Türkiyə 2 şəhid verdi

**Türkiyədə PKK terrorçuları hərbi hissəyə hücum edib. AzVision.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, hadisə ölkənin İraq sərhədində yerləşən Hakkari şəhəri, Şəmdinli rayonunda qeydə alınıb.**

Belə ki, PKK terrorçularının hücumu nəticəsində 2 hərbçi həlak olub, 6-sı yaralanıb.

Atımdana sonra bölgəyə əlavə qüvvələr cəlb edilib. Öncə sərhəddə terrorçuların yerləşdiyi mövqelər topla daha sonra qırıcı təyyarələrlə bombalanıb.



# Ölkəyə keyfiyyətsiz toyuq əti gətirənlərə qarşı cinayət işi açıldı

**İqtisadiyyat Nazirliyi tərəfindən əhalinin sağlamlığı və istehlakçı hüquqlarının qorunması, istehlak mallarına olan tələbatın yüksək keyfiyyətli məhsullarla təmin olunması və süni qiymət artımının qarşısının alınması istiqamətində təsərüffat subyektlərində istehsal edilən və idxal olunan məhsulların keyfiyyətinə nəzarət tədbirlərinin həyata keçirilməsi zamanı ölkəyə keyfiyyətsiz toyuq əti məhsulları idxal edən şirkətin vəzifəli şəxslərinin qanunsuz əməlləri aşkar edilməklə qeyd olunan məhsullar satışdan kənarlaşdırılıb.**

Nazirliyin Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti tərəfindən toplanmış materiallar hüquqi qiymət verilməsi üçün Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə göndərilib.

Araşdırmalar zamanı Ukraynadan Azərbaycan Respublikasına dondurulmuş toyuq əti məhsulları gətirilməsi ilə məşğul olan "OMEQA" MMC-nin vəzifəli şəxslərinin vəzifə səlahiyyətlərindən sui-istifadə edərək malların qiymətini süni yolla artırmaq məqsədilə ölkəyə tərkibində nəmliyinin kütlə payı normadan 7 dəfə artıq olan Ukrayna istehsalı olan "Katkut" markalı dondurulmuş toyuq əti məhsulları idxal edərək malın çəkisinə və keyfiyyətinə dair istehlakçıları xeyli miqdarda aldatmalarına şübhələr üçün əsaslar olduğundan fakta görə Cinayət Məcəlləsinin 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 200.1-ci (istehlakçıları xeyli miqdarda aldatma) maddələri ilə cinayət işi başlanıb.

Hazırda cinayət işi üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

İqtisadiyyat Nazirliyi və Baş Prokurorluq əlaqəli şəkildə istehlak bazarında əhalinin sağlamlığına ziyan vuran və keyfiyyətsiz məhsulların istehsal və idxal olunmasının, gizli yollarla süni qiymət artımı hallarının qarşısının alınması, belə məhsulların satışdan kənarlaşdırılması və təqsirkar şəxslərin məsuliyyətə cəlb edilməsi istiqamətində qanunla nəzərdə tutulmuş ən kəsərli tədbirlərin həyata keçirilməsi bundan sonra da davam etdiriləcəkdir.

# Dolların rəsmi məzənnəsi 1.60 manatı ötdü

**Azərbaycan Mərkəzi Bankı (AMB) avqustun 8-ə olan USD/AZN rəsmi məzənnəsini açıqlayıb. AMB-dən "APA-Economics"ə verilən məlumata görə, USD/AZN rəsmi məzənnəsi avqustun 8-ə 1,6005 səviyyəsində müəyyən olunub. Qeyd edək ki, bu gün dollar 1,5980 manata bərabər olub.**




# Heydər Əliyev adına Beynəlxalq Hava Limanının sərnişin dövriyyəsi 27% artıb

**Bu ilin iyul ayında Heydər Əliyev adına Beynəlxalq Hava Limanı 391 min sərnişinə xidmət göstərib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 27% çoxdur.**

Bu barədə müsavat.com-a "Azərbaycan Hava Yolları" QSC-nin mətbuat xidmətindən məlumat verilib.

Ümumilikdə, 2016-cı ilin ötən yeddi ayı ərzində Bakı hava limanı 1,69 milyon sərnişinə xidmət göstərib. Bu müddət ərzində hava limanının yük terminalı vasitəsilə 8,9 milyon ton yük daşınıb ki, bunun da 88%-i yüklərin, 12%-i isə poçt göndərişlərinin payına düşür.

Hava limanının sərnişin dövriyyəsinin əsas artımı beynəlxalq aviadaşımaların hesabına baş verib. "Azərbaycan Hava Yolları"nın daxili reyslərindən 302 sərnişin istifadə edib (2015-ci il illə müqayisədə 8% artım). Həmin sərnişinlərin 292 mini Bakı-Naxçıvan marşrutunun payına düşür.

Beynəlxalq istiqamətlər üzrə ən çox tələbat Bakıdan İstanbula, Moskvaya və Dubaya olub. Azərbaycan, Türkiyə, Rusiya, Ukrayna və BƏƏ hava yolları ümumilikdə il ərzində bu istiqamətlərdə təqribən 800 min sərnişin daşıyıb. Türkiyənin məşhur kurortları olan Antalya, Bodrum, İzmir və Dalamana sərnişin dövriyyəsi bu il ərzində 56,5 min nəfər təşkil edib.

Heydər Əliyev adında Beynəlxalq Hava Limanının yeni aerovağzal kompleksi (Terminal 1) 2014-cü ilin aprel ayında istifadəyə verilib. Onun ümumi sahəsi 65 min kvadratmetr təşkil edir.

Böyük Britaniyanın nüfuzlu konsaltinq şirkəti "Skytrax" tərəfindən xidmət keyfiyyətinə görə AZAL 4 ulduza layiq görülüb. Heydər Əliyev adına Beynəlxalq Hava Limanı il ərzində 9 milyon sərnişinə xidmət göstərmək üçün nəzərdə tutulub.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 171 (6492) 6 avqust 2016

# ANS-in tezliyində başqa kanal yayımlanır

## Ancaq MTRŞ və telekanal özü bunu təkzib edir; ANS isə susur

**Lisenziyası əlindən alınan ANS TV-nin tezliyində yeni telekanal yayımlanır. Artıq bir neçə gündür ki, axşam saatlarından etibarən Azərbaycan ərazisində “Günəş TV” efirə çıxır.**

“Günəş TV” ANS TV-nin tezliyində yayımlanır. Hələ ki yalnız kinolar yayımlanan TV avqustun 5-də “Casus uşaqlar-2" filmini yayımlayıb.

Qeyd edilir ki, ölkənin ilk uşaq kanalı olan “Günəş TV” ötən il aprelin 1-dən şimal bölgəsində yayıma başlayıb. Efir vaxtını bütünlüklə uşaqlara həsr edən “Günəş TV”-də yalnız milli-mənəvi dəyərlərə söykənən, uşaq psixologiyasına müsbət təsir edən verilişlər və filmlər yayımlanır.

Lakin kanalın ANS TV-nin tezliyində yayımlanması rezonans doğurub.

Məlumata dərhal MTRŞ-dən reaksiya gəlib. Milli Televiziya və Radio Şurasının (MTRŞ) Aparat rəhbəri Toğrul Məmmədov “Report”a açıqlamasında bildirib ki, “ANS TV-nin tezliyində hər hansı bir televiziya kanalı yayımlanmır və hazırda həmin tezlik boşdur”. Onun sözlərinə görə, ANS TV-nin tezliyində yayımlandığı iddia edilən “Günəş” TV Qubada fəaliyyət göstərən uşaq kanalıdır: ““Günəş” TV region kanalıdır və ona verilən lisenziya ilə yalnız regionda fəaliyyət göstərə bilər. Həmin TV-nin ANS-in tezliyində yayımlanmağa ixtiyarı yoxdur".

T.Məmmədov onu da vurğulayıb ki, ANS TV-nin tezliyi müsabiqə əsasında hər hansı bir yayımçıya verilməyənə qədər boş qalacaq.

**Xəbərdə adı hallanan “Günəş TV”-nin rəhbərliyinin də açıqlaması özünü gözlətməyib. Televiziyanın icraçı direktoru Rəşad İsayev interpress.az-a açıqlama verərək yayılan xəbəri təkzib edib:** “Biz ANS TV-nin tezliyində yayımlanmırıq. Həmişəki kimi öz tezliklərimiz altında efirimizi peyk vasitəsilə yayımlayırıq. Bundan başqa, şimal bölgəsində rəqəmsal yayımı da davam etdiririk”.

“Yeni Müsavat”ın müxbiri sözügedən məsələ ilə bağlı ANS rəhbərliyindən münasibət öyrənməyə çalışıb.

**ANS Şirkətlər Qrupu prezidentinin media üzrə müşaviri Mais Məmmədov “Yeni Müsavat”ın zənglərinə cavabında hazırda məzuniyyətdə olduğunu və heç bir açıqlama verə bilməyəcəyini bildirib:** “Hazırda məzuniyyətdəyəm. Heç nədən xəbərim yoxdur. Nə mətbuatı oxuyuram, nə də saytlara baxıram. Ona görə də cavab verə bilməyəcəyəm. Bir həftədən sonra məzuniyyətim bitir, şəhərə qayıdacağam. O zaman zəng edin, sualınızı cavablandırım”.

ANS Şirkətlər Qrupunun vitse-prezidenti Mirşahin Ağayevlə də gün ərzində əlaqə saxlamaq mümkün olmayıb. Onun telefonuna zəng çatsa da cavab verməyib. ANS TV-nin digər əməkdaşları isə yalnız bu iki şəxsin mətbuata açıqlama vermək hüququnun olduğunu bildiriblər.

ANS TV-nin bağlanması ilə bağlı məhkəmə prosesinə gəlincə, ANS Müstəqil Yayım və Media Şirkəti Milli Televiziya və Radio Şurasının (MTRŞ) kanalın fəaliyyətinə xitam verilməsi (lisenziyanın ləğvi) barədə məhkəmə qərarından kasasiya şikayəti verib.

Kasasiya şikayətinə yaxın günlərdə Ali Məhkəmədə baxılacaq.

Xatırladaq ki, Azərbaycan Respublikası Milli Televiziya və Radio Şurası Türkiyə ilə Azərbaycan arasında strateji tərəfdaşlıq münasibətlərinin pozulmasına yönəlmiş təxribatın qarşısını almaq, açıq şəkildə terrorizmin təbliğatına yol verməmək məqsədilə, Azərbaycan Respublikası Baş Prokurorluğunun 18 iyul 2016-cı il tarixli müraciətini, “Televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikası Qanununun 11, 23, 32-ci maddələrinin tələblərini rəhbər tutaraq ANS Müstəqil Yayım və Media Şirkətinin yayımının 18 iyul 2016-cı il saat 18:30-dan etibarən 1 ay müddətinə dayandırılması, 25 oktyabr 2013-cü il tarixli TR 099 saylı xüsusi razılığın (lisenziyanın) qüvvəsinə xitam verilməsi barədə məhkəmədə iddia qaldırılması, “Televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikası Qanununun 23.2.8-ci maddəsinin tələbinə uyğun olaraq ANS ÇM Yayım və Media Şirkətinə 25 oktyabr 2013-cü il tarixdə verilmiş TR 100 saylı xüsusi razılığın (lisenziyanın) qüvvəsinə xitam verilməsi barədə qərar qəbul edib.

Daha sonra MTRŞ ANS Müstəqil Yayım və Media Şirkətinə televiziya yayımı üçün verilmiş lisenziyanın ləğv edilməsi üçün Bakı Apelyasiya Məhkəməsinə müraciət edib. Məhkəmənin qərarına əsasən, ANS TV-nin yayım lisenziyası ləğv edilib. ANS TV həmin qərardan kasasiya şikayəti verib.

❑ **Nərgiz LİFTİYEVA**



# Şirvandakı partlayışların səbəbini gizli saxlamaq tapşırığı verilib

## Camalovlar dəhşətli olayı sıradan hadisə kimi təqdim etmək istəyirlər; yaralılara işdə qalmaq müqabilində susqunluq şərti qoyulub

**İyulun 26-da Müdafiə Sənayesi Nazirliyinin (MSN) tabeliyində olan və Şirvanda yerləşən hərbi təyinatlı “Araz” zavodunda baş verən dəhşətli partlayışın səbəbləri gizli saxlanılır. MSN rəsmiləri gizliliyi təmin etmək üçün əllərindən gələni əsirgəmirlər. Redaksiyamıza daxil olan məlumata görə, dəhşətli partlayışdan sonra yaralılara və olay zamanı ölən şəxslərin yaxınlarına maddi yardımlar göstərməklə onlara hadisə barədə danışmamaq tapşırılıb.**

MSN-in tabeliyində olan “Üfüq” İstehsalat Birliyinin baş direktoru Ramiz Məmmədov yaralılarla şəxsən görüşməklə bir neçə aylıq ödənilməyən əmək haqqlarını ödəyib, onlara əlavə yardımlar ediləcəyini vəd edib. Əvəzində yaralılara partlayışla bağlı danışmamaq tələbi qoyulub. Danışan şəxslərə zavod fəaliyyətini bərpa edəndən sonra iş yerinə qaytarılmayacağı da eşitdirilib. Ondan əvvəl isə 1 il əvvəl partlayış baş vermiş “Telemexanika” zavodunun direktoru Usubağa Məmmədov “Araz” zavodunda baş verən partlayışda yaralananlara baş çəkərək onlara partlayışla bağlı danışmamağı, maraqlananlara olayın yüksəkgərginlikli elektrik xətlərindəki qəza üzündən baş verməsini deməyi tapşırması haqda xəbərlər almışdıq.

Zavodlardakı partlayışların səbəblərinin gizli saxlanmasına cəhdlər ortada ikən son partlayışın səbəbləri haqda ən müxtəlif xəbərlər dolaşmaqdadır. Olayın təxribat ola biləcəyi versiyası səslənməkdədir.

MSN dəhşətli olaydan 10 gündən artıq müddət ötməsinə baxmayaraq, səbəbi açıqlamağa həvəsli görünmür. Bununla yanaşı, mətbuat nümayəndələrinin həqiqəti üzə çıxarmaq üçün yazdıqlarını önləmək yoluna baş vurmaqdan da çəkinmirlər. 2 nəfərin ölümü, 26 nəfərin yaralanması ilə nəticələnən partlayışın səbəbləri, fəsadların aradan qaldırılması ilə bağlı görülən işlərin nəticələri barədə məlumatlar ictimiyyətdən gizlədilir.

1 il əvvəl, iyulun 6-da Şirvanda “Telemexanika” zavodunda baş verən partlayışla bağlı da MSN-in susqunluğu davam edir.

Həmin vaxt nə baş verdiyi bu gün də aydın deyil. Bilinən budur ki, hadisə ilə bağlı Şirvan Şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 223.2-ci (partlayış təhlükəli obyektlərdə təhlükəsizlik qaydalarını pozma ağır nəticələrə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanmışdı. Bir nəfərin ölümü, 19 nəfərin müxtəlif dərəcəli bədən xəsarətləri alması ilə nəticələnən həmin partlayışın başvermə səbəblərinin müəyyənləşdirilməsi məqsədilə müvafiq ekspertizalar təyin edilmişdi. Bu cinayət işinin başlanması haqda məlumat verilsə də, nəticəsi haqda xəbərlər hələ də gizli saxlanılır.

“Araz” zavodundakı partlayış faktına görə isə Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində Cinayət Məcəlləsinin 223.2 (partlayış təhlükəli obyektlərdə təhlükəsizlik qaydalarını pozma ağır nəticələrə səbəb olduqda) və 314.2-ci (səhlənkarlıq ağır nəticələrə səbəb olduqda) maddələri ilə cinayət işi başlanıb. Bu cinayət işinin nəticəsinin nə olacağı isə maraqla gözlənilir.

Hazırda 10 gün əvvəl dəhşətli partlayış baş vermiş zavodda iş dayandırılıb. Partlayışın bilavasitə baş verdiyi sursatların utilizasiya mərkəzinə ANAMA mütəxəssisləri girməyə, orada təmizlik işləri aparmağa tələsmirlər. Bu, partlayış riskinin qalması ilə izah olunur. Mütəxəssislər zavodda və zavodətrafı təxminən 2 kilometrlik ərazidə partlayışdan sonra ətrafa səpələnən döyüş sursatlarının başlıqlarını, siqnal raketlərinin patronlarını toplamaqla məşğuldurlar.

Onu da qeyd edək ki, prezident İlham Əliyevin sərəncamı ilə “Araz” zavodunda baş vermiş partlayışla əlaqədar Dövlət Komissiyası yaradılıb. Baş nazirin 1-ci müavini Yaqub Eyyubov sədrlik etdiyi komissiyanın bu günə qədər keçirdiyi toplantılar, görülən işlərlə bağlı ictimaiyyətə heç bir məlumat verilmir. Bu arada “Araz” zavodunun texniki təhlükəsizlik məsələləri üzrə direktor müavininin işdən getməsi haqda ərizəsi alınıb.

❑ **E.HÜSEYNOV**

# AMİP-dən referendum açıqlaması

## Partiyanın sədr əvəzi təşviqat qrupu yaratmamalarının səbəbindən danışdı

**Seçki Məcəlləsinin tələbinə görə, referendumda siyasi partiyalar o halda bütün ölkə ərazisində təbliğat-təşviqat apara bilər ki, təşviqat qrupu kimi Mərkəzi Seçki Komissiyasında qeydiyyata alınsınlar. 26 sentyabrda keçiriləcək referendumla bağlı isə hakim Yeni Azərbaycan Partiyası və Müsavat Partiyası təşəbbüs qrupları yaradıblar.**

Təşəbbüs qrupları qeydiyyatdan keçdikdən sonra təşviqat qrupu kimi fəaliyyət göstərəcək. MSK onlara imza vərəqi verdikdən sonra 40 mindən artıq imza toplamalıdırlar. İmza topladıqdan sonra həmin imzalar MSK-da yoxlanacaq və qeydiyyat barədə qərar veriləcək. Referendumla bağlı təşəbbüs qrupu yaratmaq üçün son müddət isə artıq başa çatıb. Bu isə o deməkdir ki, referendumda müxalifət partiyalarından ən yaxşı halda yalnız Müsavat ölkə üzrə təbliğat aparmaq hüququ əldə edəcək. MSK Müsavatın yaratdığı “Respublika” təşviqat qrupunu qeydə alsa belə olacaq. Deməli, faktiki olaraq digər bütün müxalifət partiyaları referendumda ölkə boyu təbliğat apara bilməyəcəklər, çünki heç kim təşviqat qrupu yaratmaq üçün təşəbbüs qrupu yaratmadı. Bəzi siyasi ekspertlərin fikrincə, bu vəziyyət müxalifət partiyalarında “Heç bir təşviqat qrupunun referenduma təsir etməsi mümkün deyil” fikrinin formalaşması, eyni zamanda partiyaların təşviqat qrupu yaratmaq üçün resurslarının olmaması və özünə inamsızlıqla bağlıdır.



Arzuxan Əlizadə

Ölkə üzrə təşkilatlanan siyasi partiyalardan olan **AMİP-in sədr əvəzi Arzuxan Əlizadə** “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, siyasi ekspertlərin dediklərində müəyyən həqiqət payı olmamış deyil. Referendumun keçirilməsi barədə qərarın gözlənilməzliyi, konstitusiyaya təklif olunan əlavə və dəyişikliklərin ictimai müzakirəyə çıxarılmaması və bütün bu prosesin onsuz da passiv mövqedə olan cəmiyyətə yay istirahət vaxtlarında təqdim olunmasından irəli gələn vaxt darlığı bu məsələdə, həlledici olmasa da, əhəmiyyətli rol oynadı: “Ümumilikdə müxalifət partiyalarının hansı səbəblərdən referendum üzrə təşviqat qrupları yaratmadıqlarına hər partiya yəqin ki, öz arqumentləri çərçivəsində aydınlıq gətirəcək”.

**AMİP-in nə üçün referendumla bağlı təşviqat qrupu yaratmadığına gəlincə, Arzuxan Əlizadə qeyd etdi ki, mövcud reallıqlar və əvvəlki keçirilən referendumlar təcrübəsini nəzərə alıb bu addımı atmayıblar:** “Tam səmimi olaraq onu deyim ki, ölkənin 70-ə yaxın inzibati-ərazi vahidində oturuşmuş yerli təşkilatlara malik olan Azərbaycan Milli İstiqlal Partiyası üçün Seçki Məcəlləsinin tələblərinə müvafiq olaraq 60-dan artıq seçki dairəsindən 40 mindən artıq imza toplanılması həlli mümkün olmayan məsələ deyildi. Lakin AMİP olaraq, biz mövcud reallıqlardan və əvvəlki keçirilən referendumlar təcrübəsindən çıxış edərək bu dəfə referendum üzrə təşviqat qrupunun yaradılması fikrindən vaz keçdik. Bununla yanaşı, bildirirəm ki, partiya referenduma çıxarılacaq bir sıra təkliflərin qəbul olunmasının qəti əleyhinədir və həmin məsələlərlə əlaqədar AMİP-in münasibəti KİV-lər vasitəsilə, eləcə də qanunun partiyalara verdiyi digər imkanlardan yararlanmaqla ictimaiyyətə çatdırılacaq”.

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 171 (6492) 6 avqust 2016

# Akif Çovdarovun icra başçısına qarşı qara maskalı əməliyyatı haqda yeni təfərrüat

**Ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyi (MTN) vəzifəlilərinin iş adamlarından aylıq xərac toplaması yeni xəbər deyil. Məmurların, vəzifəli şəxslərin də “mahmudovçu”ların caynağına keçməsi haqda indiyədək çox yazılıb, deyilib. Şantaj yolu ilə məmurlardan, iş adamlarından xərac yığması ilə bağlı vaxtaşırı yeni faktlar aşkarlanır.**



## Sabiq MTN generalı dövlətin 800 min manatını reketçiliklə ələ keçirib; həmin vəsait Əhəd Abıyevin Daşkəsəndə tikdirdiyi körpünün pulu imiş, məbləğ hələ də geri qaytarılmayıb

MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general Akif Çovdarovun belə qanunsuz əməllərin törədilməsində öncül yerlərdə qərarlaşması da artıq kimsəni təəccübləndirmir. Redaksiyamıza daxil olan məlumata görə, A.Çovdarovun əl uzatdığı şəxslərdən biri də Daşkəsən Rayon İcra Hakimiyyəti başçısı Əhəd Abıyev olub. Xatırladaq ki, bu haqda iki gün öncə bəzi saytlarda məlumat gedib. Amma musavat.com bu xəbərə aid əlavə məlumatlar öyrənib. Əlimizdə bəzi detallar var.

***

İki il əvvəl Ə.Abıyevin MTN-in yerli şöbəsinin rəisi ilə aralarında narazılıq yaranıb. Sonradan bu narazılıq ciddi qarşıdurmaya çevrilib. İş o yerə çatıb ki, Ə.Abıyev “yuxarılara” müraciət etməklə MTN-in yerli şöbəsinin ona mane olmasını çatdırmalı olub. Bundan sonra şöbə rəisi geri çəkilib. Tərəflər arasında qarşıdurma səngimiş kimi göründüyü bir vaxtda Daşkəsən rayonunun Qabaqtəpə kəndində körpü tikintisinin aparılması üçün tender elan olunub. Tenderin qalibi olan iş adamı rəhbərlik etdiyi şirkətin mühasibi ilə birgə Bakıya tikintinin aparılması üçün büdcədən ayrılan vəsaitin alınması üçün gəliblər. Amma geri dönməyiblər. Həmin iş adamının, onun mühasibinin yaxınları güman etdikləri ünvanlarda onları tapmadıqda Daşkəsən İcra Hakimiyyətinə üz tutublar. Əhəd Abıyevdən yaxınlarını tələb edən şəxslərə başçı konkret bir söz deyə bilməyib. 2 günlük axtarışlardan sonra məlum olub ki, hər iki şəxs bankdan 800 min manatı alıb çıxandan sonra MTN-in qara maskalılarının hücumuna məruz qalıblar. Küçənin ortasında oğurlanan həmin şəxslər başlarındakı torbanı çıxararkən MTN-də Akif Çovdarovun kabinetində olduqlarını görüblər. A.Çovdarov kabinetinə gətirilən şəxslərin cinayətkar olmalarını “izah” etdiyi bir vaxtda Ə.Abıyev də MTN-ə çağırılıb. Akif Çovdarov Əhəd Abıyevi bir qədər gözlətdikdən sonra onu qəbul edib. Tərəflər arasındakı qarşılıqlı ittihamlar Çovdarovun Abıyevi həbslə hədələməsi ilə nəticələnib. Deyilənlərə görə, A.Çovdarov Ə.Abıyevə “5 ildir icra başçısısan, amma indiyədək gəlib bizi görməmisən” söyləyib. Bunun nəyə işarə olduğunu yəqin oxucu başa düşdü. Yuxarıda qeyd etdiyimiz kimi, MTN rəhbərliyi hər kəsə xərac yükləyib - kiminə az, kiminə çox. Necə deyərlər, damarına baxıb, qan alırlarmış...

Bundan sonra Əhəd Abıyev Eldar Mahmudovla görüşmək istəyib. Görüş baş tutub. Nazir Əhəd Abıyevə 5 il əvvəl icra başçısı təyin edildiyini xatırladıb, bu müddət ərzində MTN rəhbərliyinə sayğı göstərmədiyini irad tutub. Uzun müzakirədən sonra E.Mahmudov Ə.Abıyevə bir tikinti layihəsi verib. Deyib, get bu layihəni reallaşdır. Həmin layihənin tikintisi bir neçə yüz min manat olub.

Əlimizə çatan məlumatlara görə, Əhəd Abıyev MTN-də “təmizləmələr”, həbslər baş verəndən sonra yaradılan istintaq qrupunun üzvləri tərəfindən dindirilib. İcra başçısı körpü tikintisinə dövlət büdcəsindən ayrılan 800 min manatın qaytarılmadığını da istintaqçılara deyib. Ə.Abıyev tender qaliblərinin Bakıya 800 min manatı bankdan çıxarmaq üçün gəldikləri haqda məlumatların MTN-in yerli şöbəsinin rəisi tərəfindən ötürülməsini də istisna etməyib.

İcra başçısı olayla bağlı mətbuata açıqlamasında belə bir olayın yaşandığını da gizlətməyib.

**“Hələ Akif Çovdarov utanmaz-utanmaz mənə deyirdi ki, ”bir neçə ildir ki, icra başçısısan, amma bir dəfə də olsun gəlib, bizi “görməmisən”. Çox həyasız adam idi. Mən ona ağzıma gələni dedim. İnsanların balası var, küçədən oğurlayıb, ona işgəncə vermişdilər. Hələ Eldar Mahmudov utanmaz-utanmaz mənə deyirdi ki, “bura sənə Milli Məclis deyil”. Dedim, sizin əməlləriniz insanı özündən çıxarır. Onu MTN-dən aparanda tanınmaz halda idi. Eldar Mahmudov və dəstəsi millətin bəlasına çevrilmişdi. Mən yüzlərlə məmur tanıyıram ki, bunlar “vurulanda” qurban kəsdilər"** -deyə Ə.Abıyev bildirib.

Mənbə bildirir ki, A.Çovdarovun oğurladığı 800 min manat bu günə kimi qaytarılmayıb. Daşkəsəndə tikilən körpü isə Ə.Abıyevin hesabına inşa edilib və ötən il dekabrın 24-də açılışı olub. İcra başçısı həmin vəsaiti, deyilənə görə, çox çətinliklə tapıb. Bu layihənin vaxtında reallaşması üçün Ə.Abıyevin xeyli borca düşdüyü də bildirilir.

**❑ E.MƏMMƏDƏLİYEV**

# Eldar Mahmudovun “Akula”sı haqqında yeni ilginc faktlar

## Sabiq nazirin əlaltısının 2013-cü ildə həbs etdirdiyi iş adamının xanımı: “”Akula" dedi ki, deyilənlərə əməl etməsən, ailəni məhv edəcəyik"; “Afina” “düyünü” çözülə biləcəkmi?

**Ləğv edilmiş MTN-in sabiq rəhbəri Eldar Mahmudovun “sağ əli” olan, məlum olaylardan sonra ölkədən açan “Akula” ləqəbli Akif Mustafayev haqqında ilginc faktlar məlum olub. Belə ki, “Afina” MMC-nin direktor müavini olmuş, mənzilləri vətəndaşlara satmaq adı altında saxta müqavilələr tərtib etməkdə ittiham olunaraq 10 il həbs cəzası almış Qüvvətəli Süleymanovun xanımı Sevda Süleymanova redaksiyamıza gələrək əri və ailəsinin başına gələnlər haqda danışıb.**



S.Süleymanova bildirib ki, başda “Akula” olmaqla, “Afina” MMC-nin payçıları - Nail Şahverdiyev, Qurban Mahmudov, həmçinin “OMAKS 3" MTK-nın payçıları Yasin Cabbarov, sədri Emin Namazov və digərləri birləşərək təhdid və ölüm hədələri ilə əri Qüvvətəli Süleymanovu ərizələrə imza atmağa məcbur ediblər. Beləliklə, bütün günahları onun boynuna atmaqla həbs etdiriblər: ”Mən və həyat yoldaşım Qüvvətəli Süleymanov qanunsuzluğun, haqsızlığın, ədalətsizliyin qurbanları olmuşuq. Yoldaşım 2006-cı il tarixdən “Afina” MMC-də tikinti işləri üzrə iş icrası vəzifəsində işləməklə bərabər, şirkətə xeyli sərmayə qoymuşdu. Həmçinin 2010-cu ildən “OMAKS 3" MTK-nın da tikinti işlərinə köməklik göstərərək xeyli sərmayə qoymuş və onların tikinti işlərində yaxından iştirak etmişdi. 2011-ci ilin sonu və 2012-ci ilin əvvəllərində yoldaşım "Afina" MMC-dən və “OMAKS 3" MTK-dan qoyduğu sərmayəni geri tələb edib. Buna görə o, ”Afina" MMC-dən iş icraçısı vəzifəsindən azad edilib. Bundan sonra mənim və həyat yoldaşımın qara günləri başladı.

Ərim 24 fevral 2012-ci il tarixdə rəsmi qaydada ərizə verərək işdən çıxıb. Buna baxmayaraq, bütün saxta müqavilələr 25 fevral 2012-ci il tarixdən bağlanılmış, həmin müqavilələrin guya rəsmi olaraq onun tərəfindən bağlanılması göstərilib. İşdən çıxmış şəxs tərəfindən alqı-satqı müqavilələrin bağlanılması və həmin müqavilələrin möhrlə təsdiq edilməsi qeyri-mümkündür.

Yoldaşımın sözlərinə görə, həmin ərəfələrdə “Afina” MMC-nin payçıları Nail Şahverdiyev tanışı Vüsalla bir yerdə onu «Axundov bağı»na aparıb, orada mobil telefonla kimsə zəng edib. Zəng zamanı telefonun səs ucaldanını açıb “"Akula", Qüvvətəlini gətirmişəm, bağda sizi gözləyirik" deyib. Yoldaşım vəziyyətin gərgin, həyatının təhlükədə olduğunu görərək oradan qaçmağa nail ola bilib. Bundan sonra yenə görüşərək ondan ərimə məxsus olan bütün əmlaklarını Vüsalın adına keçməsini tələb ediblər. Ərim özü və ailəsinin həyatını təhlükədə qoymamaq üçün məcbur qalaraq əvvəlcədən tərtib olunan ərizənin sonuna imzasını atıb. Sonra isə onu skype ilə qurumun əsas təsisçisi, Moskvada yaşayan Mübariz Məmmədovla danışdırıblar. O, “Qüvvətəli, sənə nə deyirlərsə ona əməl et, yoxsa sən və ailən üçün çox pis olar, deyilənləri etməsən səni həbs etdirib, ailəni yox edərik, amma imza atsan sənin tutulmağına imkan vermərik” deyib. Daha sonra isə “Akula”ya zəng ediblər. “Akula” da Qüvvətəlini hədələyib “deyilənlərə əməl etməsən, ailəni və səni məhv edəcəyik!” deyib. Və ərimdən ona məxsus olan bütün əmlakların sənədlərini, “Afina” MMC ilə bağlanılmış bütün müqavilələr və digər sənədləri də zorla alıblar. Ərimə bildiriblər ki, iki həftə sonra həyat yoldaşınla bir yerdə bizə qoşulmaqla Moskva şəhərində yaşayan Mübariz Məmmədovla görüşəcəyik, aramızda olan haqq-hesabları və əmlakları oradan qaytıdqdan sonra sənədlər sənə qayıdacaq, bütün haqq-hesab həll olunacaq. Lakin vədlərinə əməl etməkdənsə, “Akula Akif”, Qurban Mahmudov, Nail Şahverdiyev və digərləri birləşib ərimi günahsız yerə həbs etdirib, bütün ittihamları onun boynuna atdılar".

Qeyd edək ki, Qüvvətəli Süleymanov barəsində 2013-cü ilin fevralında həbs-qətimkan tədbiri seçilib, bu barədə mətbuata və kütləvi informasiya vasitələrinə məlumat verilmişdi. Lakin buna baxmayaraq, naməlum səbəblərdən Q.Süleymanov həbs edilməmişdi. Sonradan 21 oktyabr 2013-cü il tarixində barəsində təkrar həbs-qətimkan tədbiri seçilmiş və mənzilləri vətəndaşlara satmaq adı altında saxta müqavilələr tərtib etməkdə ittiham olunaraq 10 il həbs cəzası almışdı. Bakı Apelyasiya Məhkəməsinin 2015-ci qərarı ilə isə onun cəzası 9 ilə endirilib.

Həyat yoldaşı Sevda Süleymanovun sözlərinə görə, ərinin həbsindən sonra dəfələrlə soyuq silahı başına dirəməklə ölümlə hədələnib, aidiyyəti orqanlara etdiyi müraciətlərə görə bir neçə dəfə insanların gözü qarşısında küçədə döyülərək mülki şəxslər tərəfindən oğurlanıb, izahat yazmağa məcbur edilib, 4 gün qızı ilə evində əsir kimi saxlanılıb, evi qanunsuz olaraq zorla əlindən alınıb. S.Süleymanova ərinin günahsız olaraq həbs olunduğunu və bütün bu olanlara görə müvafiq orqanlara müraciət etdiyini, lakin heç bir nəticə olmadığını deyib.

Yazıda adı hallanan şəxslərə gəldikdə isə bildirək ki, məlumata görə, Moskvada yaşayan Mübariz Məmmədov “Afina” MMC-nin əsas ortaqlarından biridir. Deyilənə görə, o, əslən şəmkirlidir və Rusiyada “Borya” kimi məşhurdur. Onun Azərbaycandakı biznesini Qurban Mahmudov idarə edib. “Akula” ləqəbli şəxsə gəldikdə isə artıq çoxlarına məlumdur ki, o, sabiq MTN naziri Eldar Mahmudovun yaxın çevrəsində olan, iş adamı kimi tanınan Akif Mustafayevdir. “Akula Akif” haqqında mətbuatda xeyli məlumatlar dərc olunub. Yayılan məlumatlarda bildirilir ki, o, ayrı-ayrı iş adamları haqda MTN rəhbərliyinə lazımi bilgilər verib, onları ilişdirirmiş. Sonradan həmin iş adamlarına öz “köməyini” təklif edirmiş. MTN zabitləri ilə iş adamları arasında vasitəçilik görüntüsü yaradıb, külli miqdarda pul alırmış. O da bildirilir ki, “Akula Akif” bu “xidmətlərindən” sonra MTN-in “əlindən qurtardığı” iş adamlarının biznesinə 20-30 faiz ortaq olurmuş. Onlara “krışalıq” edirmiş. Məlumatlara görə, o, ötən il oktyabrın 18-də Eldar Mahmudov nazir vəzifəsindən çıxarıldıqdan 1 gün sonra təyyarə ilə Bakıdan Parisə qaçıb.

**Yazıda adları hallan digər şəxslərin də mövqeyini dərc edə bilərik.**

**❑ Xalidə GƏRAY**

YENİ MÜSAVAT
N 171 (6492) 6 avqust 2016

# "Bu, elə bir həll variantı olmalıdır ki..."

**Avqustun 8-də Bakıda ilk dəfə olaraq Azərbaycan, Rusiya və İran prezidentlərinin üçtərəfli görüşü keçiriləcək. Görüşün gündəliyi artıq bəllidir. Sammit çərçivəsində həmçinin ikitərəfli təmaslar olacaq, regional əhəmiyyətli bir sıra digər məsələlər və problemlər diqqət mərkəzinə gətiriləcək.**



# Putin Bakı səfəri öncəsi "Qarabağ kartı"nı açdı, reseptdən danışdı

Azərbaycan KİV-ə ilk geniş müsahibəsində Rusiya lideri nizamlamanın "Kazan formulu" əsasında gedə biləcəyini dolayısı ilə təsdiqlədi; Kremlin özünün də çətin durumda olduğuna işarə vurdu, "strateji tərəfdaş" Azərbaycanla "strateji müttəfiq" Ermənistan arasında seçim qarşısında qaldığını etiraf elədi...

Zirvə toplantısı ərəfəsində Rusiya prezidenti Vladimir Putin AzərTAc-a geniş müsahibə verib. Bakı sammitinin əhəmiyyətini yüksək qiymətləndirən Putin Azərbaycan-Rusiya münasibətlərinin strateji tərəfdaşlıq xarakteri daşıdığını xüsusi vurğulayıb. "Bu münasibətlərin əsasını qədim dostluq və mehriban qonşuluq ənənələri, hüquq bərabərliyi, bir-birinin mənafelərinə hörmət, ortaq tarix və mədəniyyət, milyonlarla insanın qaynayıb-qarışmış taleləri təşkil edir. İki ölkənin dövlət başçıları, hökumətləri və parlamentləri arasında qarşılıqlı etimada əsaslanan əlaqələr məhz bu cür möhkəm təməl üzərində inkişaf edir", - deyə o vurğulayıb.

Rusiya lideri təbii ki, Qarabağ mövzusunda verilən sualları da cavablandırıb, 4 günlük aprel müharibəsindən sonra konfliktin həlli ilə bağlı rəsmi Moskvanın diplomatik təşəbbüskarlığından, aparılan sülh danışıqlarından söz açıb və problemin həllini necə gördüyünə aydınlıq gətirib. Habelə, bəzi mühüm açıqlamalar edib, mesajlar verib. Öncə onun bu mövzuda fikirləri ilə tanış olaq.

*****

Qarabağ düyününün açılmasında həlledici rolu məhz Rusiyanın oynaya biləcəyi ilə bağlı suala Putin belə cavab verib: "Rusiyanı Azərbaycan və Ermənistanı dərin tarixi köklər, strateji xarakterli münasibətlər, coğrafi yaxınlıq bağlayır. Buna görə də biz həqiqətən maraqlıyıq ki, qonşu regionda sülh və asayiş yenidən bərqərar olsun, orada insanlar həlak olmasınlar, sərhədlər açılsın, iqtisadi əlaqələr bərpa edilsin. Bunun üçün nə mümkündürsə edirik. Xatırladım ki, Rusiyanın birbaşa köməyi ilə 1994-cü ilin mayında atəşkəs haqqında saziş imzalanıb və bu saziş indiyə qədər atəşkəsin əsasını təşkil edir. 2008-ci ildə Moskva Bəyannaməsinin qəbul edilməsi mühüm mərhələ oldu. Sənəddə təsdiq edilib ki, problemin həllinə yalnız siyasi yolla nail olmaq mümkündür. Yeri gəlmişkən, bu, konfliktin tənzimlənməsinə dair Azərbaycan və Ermənistan prezidentlərinin imzaladıqları ilk və hələlik yeganə sənəddir. Bu il aprel ayının əvvəlində irimiqyaslı döyüş əməliyyatlarının dayandırılmasında da məhz Rusiya həlledici rol oynayıb. Xüsusi vurğulamaq istəyirəm ki, biz Azərbaycana və Ermənistana hansısa hazır reseptləri qəbul etdirməyə əsla çalışmırıq. Tərəflər kənardan təzyiq olmadan özləri razılığa gəlməli, qarşılıqlı məqbul həll yollarını tapmalıdırlar. Bu, bizim qəti mövqeyimizdir".

Konfliktin hansı prinsiplər əsasında həll ola biləcəyinə toxunan Kreml başçısı deyib: "Kompromisin əldə edilməsi ərazi bütövlüyü və xalqların təyini-müqəddərat hüququ prinsipləri arasında optimal tarazlığın tapılmasını nəzərdə tutur. Biz Azərbaycan və Ermənistan rəhbərliyi üzərində necə böyük bir məsuliyyətin olduğunu tam başa düşürük. Münaqişənin həllinə dair bu il iyunun 20-də Sankt-Peterburqda keçirilən sonuncu sammitdə üstünlük təşkil edən konstruktiv əhvalı alqışlayıram. Tənzimlənmənin son məqsədi elə bir razılaşma olmalıdır ki, tərəflərdən heç biri nə qalib, nə də məğlub sayılsın, güzəştlər qarşılıqlı, tərəflərin hər birinin qazancı həm Azərbaycanda, həm Ermənistanda ictimai rəy üçün aydın olsun. Öz növbəsində Rusiya problemin cəlb olunmuş bütün tərəfləri razı salacaq həll variantını dəstəkləməyə, digər vasitəçilərlə birlikdə tənzimləmənin qarantı kimi çıxış etməyə hazırdır... Ümidvaram ki, tərəflərin hamını qane edən həllə nail olmasına birgə səylərlə kömək edə biləcəyik".

*****

**Vladimir Putinin müsahibədə əksini tapmış Qarabağ açıqlamalarından bir neçə mühüm qənaət hasili olur:**

Əvvəla, Rusiya prezidenti bununla ölkəsinin məsələ ilə bağlı kifayət qədər çətin durumda olduğunu, "strateji tərəfdaş" Azərbaycanla "strateji müttəfiq" Ermənistan arasında seçim qarşısında qaldığını etiraf edib.

İkincisi, Moskvanın yenə də Ermənistanı işğalçı adlandırmağa hazırlaşmadığını, işğalçı ilə işğala məruz qalan tərəfə eyni gözlə baxdığını, ən əsası, aprel döyüşlərindən sonra da sülh anlaşması üçün İrəvana təzyiq göstərmək niyyəti güdmədiyini ortaya qoyub. "Tərəflər kənardan təzyiq olmadan özləri razılığa gəlməli, qarşılıqlı məqbul həll yollarını tapmalıdırlar" ifadəsinin əsas anlamı budur. Ermənistana təzyiq göstərilmədən ixtilafın həllində irəliləyişə necə nail olunacağı isə bəlli deyil. Çünki təcavüzkar danışıqlar müstəqil tərif deyil və bütünlüklə, Rusiyanın dedikləri ilə oturub-durur.

Üçüncüsü, belə məlum olur ki, Kreml müharibədə də maraqlı deyil və bu üzdən diplomatik təşəbbüslərini davam etdirmək zorundadır. Putinin toxunduğu "həll prinsipləri" isə son vaxtlar Rusiya tərəfdən həvəslə təbliğ olunan "Kazan sənədi"nə aiddir və əslində yeni bir şey də sayılmaz. Bu sənəd münaqişənin mərhələli həll əsasında çözümünü ehtiva edir: öncə 7 rayon (ermənilər 5+2 variantında israr edir) qaytarılır, əvəzində Ermənistanın blokadası götürülür, kommunikasiyalar açılır, Dağlıq Qarabağa aralıq status verilir və yekun status sonraya saxlanılır, köçkünlər öz yurd yerlərinə qayıdır, bölgəyə sülməramlılar yeridilir.

Yeri gəlmişkən, Putinin danışmanlarından olan politoloq Sergey Markov neçə vaxtdır məhz bu həll modelini təbliğ edir.

❑ **Siyasət şöbəsi**

# Ərdoğanı ittiham edənlərə - əgər çevriliş baş tutsaydı...

"Türkiyədə on minlərlə, bəlkə yüz minlərlə günahsız insan qətlə yetiriləcəkdi", "Türkiyə Suriya və ya İraqın gününə düşəcəkdi", "Vətəndaş müharibəsi başlayacaqdı..."

**Türkiyədəki 15 iyul dövlət çevrilişinə cəhddən sonra Ərdoğan iqtidarı ölkənin konstitusiya quruluşunu devirməyə cəhd edənlərə qarşı sərt davrandığına görə tənqid olunur. İnsan hüquqları ilə bağlı qanunları, beynəlxalq konvensiyaları əsas gətirənlər Ankaranı təqsirsizlik prezumpsiyasını pozmamağa çağırışlar edirlər.**



Arzu Nağıyev



Elxan Şahinoğlu

**Politoloq Arzu Nağıyev** xatırlatdı ki, Türkiyədə dövlət çevrilişləri tarix boyu hərbçilər tərəfindən həyata keçirilib: "Bu da faktdır ki, Türkiyə ordusu müasir Türkiyədə daima dövlətin dayağı, qarantı və bütövlüyünün qoruyucusu olub. Yəni dövlət və dövlətçiliyə hər hansı bir təhdid olanda daima ordu onun qarşısını alıb. Son illərdə Türkiyədə bir neçə hərbi çevriliş baş verib. Statistika belədir - 1960, 1971, 1980, 1997 və baş tutmayan 2016-cı ildəki cəhd. Dövlət çevrilişi qanunsuz olaraq hakimiyyəti ələ keçirmək deməkdir. Baş tutanda inqilab deyilir, baş tutmayanda isə çevrilişə cəhd adlanır. Əsas məqsəd isə dövlətin xarici və daxili siyasətini dəyişməkdən ibarətdir".

**A.Nağıyev düşünmür ki, hərbçilər hakimiyyəti ələ alsaydı, xarici siyasətdə dəyişiklik olmayacaqdı, əsasən daxili siyasət dəyişdiriləcəkdi:** "Bu isə bəlkə də vətəndaş müharibəsi ilə nəticələnəcəkdi. Türkiyədə 5 dəfə baş tutan çevriliş altıncı dəfə fiaskoya uğradı və qarşısı alındı. Nədən? Bəlkə hərbçilər nəsə səhvlər etdilər? Vacib məsələ budur ki, onlar əsas işləri gördülər, poçt, teleqraf, körpü və s. Hətta bir xəbər də yaya bildilər. Cənab Ərdoğan öz telefonundan efirə çıxdı. Bu isə artıq kuliminasiya nöqtəsi idi. Hətta prezidentə qarşı sui-qəsd də hazırlanmışdı. Türkiyədə çevriliş bu dəfə ona görə baş tutmadı ki, xalq dövlət və dövlətçiliyi qorumaq üçün ayağa durdu və çevrilişə cəhd edənlərə müqavimət göstərdilər".

**Politoloq hesab edir ki, çevriliş qəfil olmayıb:** "Bu, gözlənilən idi və prezident cənab Ərdoğan da bunun qarşısını almaq üçün hazırlıqlı dövlət başçısı kimi hərəkət etdi. Bu çevriliş nəyə lazım idi? İlk növbədə Ərdoğan Qərbi razı salmayan, daha doğrusu, onların diktəsi ilə idarə edən dövlət başçısı deyildi. Taksim meydanından başlayaraq, çox cəhdlər edildi. Hətta Suriyada nüfuz yiyəsi olmaq istəyinin gerçəklənməsini belə düzənləyən Qərb Türkiyəni aldada bilmədi. Qaçqınlarla oyuna girən Avropa sonda əks-qərarlar verdi. Bir sözlə, səbəb Türkiyənin nəzarətdən çıxması ilə bağlı idi, o da alınmadı. Bu yolda, yəni çevriliş cəhdinin qarşısının alınmasına dünyasını dəyişən günahsız vətəndaşlara rəhmət diləməklə aydın şəkildə qeyd etmək lazımdır ki, artıq çevrilişlər zəmanəsi deyil".

**Politoloq Elxan Şahinoğlu hesab edir ki, Türkiyədə çevriliş baş tutsaydı, çevrilişi həyata keçirən generallar Ərdoğanı sağ ələ keçirməkdənsə, onu öldürməyə üstünlük verəcəkdilər:** "Mən şübhə etmirəm ki, FETÖ terror təşkilatına bağlı, hərbi forma geyinmiş terrorçular Marmarisə Ərdoğanı həbs etməyə deyil, onu öldürməyə gedirdilər. Çünki Türkiyədə ölüm cəzası ləğv olunub və darbeçilər Ərdoğanı sağ ələ keçirsəydilər, onu ölüm cəzasına məhkum edə bilməyəcəkdilər. Darbeçilər terrorçular olsa da, Avropanın mövqeyini qulaqardına vurmayacaqdılar. Türkiyədə ölüm cəzası ləğv olunub, bununla darbeçilər də hesablaşacaqdılar. Məsələ burasındadır ki, onlar hakimiyyəti ələ keçirəndən sonra Misirin hərbçi prezidenti Sisi kimi Qərblə normal münasibətlər qurmağa çalışacaqdılar. Həbsxanada olan Ərdoğan darbeçilərə daha böyük problem yaradacaqdı. Ərdoğan həbsxanada Nelson Mandelaya bənzər fiqura çevriləcəkdi. Ona görə də darbeçilər çevrilişin elə birinci mərhələsində ikən Ərdoğanı öldürməli idilər. Digər variantlar darbeçilərin gələcək idarəetmə planlarını pozacaqdı. Ancaq Ərdoğan öldürülsəydi belə, darbeçilər öz məqsədlərinə çatmayacaqdı. Çünki darbedən sonra Türkiyədə vətəndaş müharibəsi başlayacaqdı, özünə hörmət edən heç bir şəxs FETÖ terror təşkilatının əmrlərinə tabe olmayacaqdı, digər tərəfdən, ordudan qopmalar baş verəcək və onlar polislə birgə darbeçilərə qarşı aylarla savaşacaqdılar".

**E.Şahinoğlunun sözlərinə görə, belə bir vəziyyət PKK və DAİŞ-in işinə yarayacaq və onlar Türkiyədəki qarışıqlıqdan öz məqsədləri üçün istifadə edəcəkdilər:** "Yəni Türkiyə Suriya və ya İraqın gününə düşəcəkdi. Biz qardaş Türkiyədə on minlərlə, bəlkə yüz minlərlə günahsız insanın qətlə yetiriləcəyinin şahidi olacaqdıq. Darbeçilər Türkiyənin tamamına deyil, bir hissəsinə nəzarət edəcəkdilər, xarici siyasətdə terrorçubaşı Fətullah Gülənin əmrlərinə tabe olacaqdılar. Yəni ilkin mərhələdə Türkiyənin darbeçi hakimiyyəti Amerika ilə münasibətləri müttəfiqlik səviyyəsinə çatdıracaqdılar. Əks halda, Mərkəzi Kəşfiyyat İdarəsi Fətullah Güləni niyə illərdir Pensilvaniyada nəzarət altında saxlayır? Darbeçilərin qələbəsi 75 yaşlı Gülənin Türkiyəyə qayıdışını sürətləndirəcəkdi. Böyük ehtimalla o, Türkiyədə 1979-cu ildə Fransadan İrana qayıdan Xomeyni kimi bir statusa malik olmaq istəyirdi. Gülən darbeçilərin birbaşa prezidenti olmasa da, özünə Türkiyənin dini lideri, başqa sözlə "xaç atası" statusu qazandıracaqdı".

**Ekspertə görə, «gülənçi»lərin Türkiyədə qələbəsi Azərbaycandakı «gülənçi»ləri də fəallaşdıracaqdı:** "Onlar eyni ssenarini Azərbaycanda da təkrarlaya bilərdilər. Ona görə nə qədər ki, FETÖ terror təşkilatı ilə Türkiyədə mübarizə gedir, biz də mason lojasının imamlarından qurtulmalıyıq, pis, yaxşı təhsilimizə özümüz cavabdeh olmalıyıq, bizə müəllim qiyafəsində kostyumlu imamlar lazım deyil. Bizim babalarımız Cümhuriyyəti ona görə bizə vəsiyyət etməyiblər ki, məmləkətimiz kənar ideologiyanın əsirinə çevrilsin".

❑ **E.PAŞASOY**



# Əli Kərimli elektron cihazların mahiyyətini niyə anlamır

**Ehsan ZAHİDOV**
**DİN mətbuat xidmətinin rəis müavini**

***Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin rəis müavini, polis polkovniki Ehsan Zahidov AXCP sədri Əli Kərimlinin facebookda yol polisi haqda yazdığı statusa məqalə həsr edib. E.Zahidov həmin məqaləni çap olunması üçün musavat.com saytına yollayıb. Yazını təqdim edirik:***

“Gündən-günə sosial dayaqlarını, yağlı vədlər verərək ətrafına topladığı bir ovuc tərəfdarını itirən AXCP sədri Əli Kərimli meydanlardan və qəzet səhifələrindən sürüşərək virtual aləmə düşüb. Onun sosial şəbəkədəki statuslarını oxuyanda açıq-aydın görünür ki, adam hələ də yalandan, qərəzdən, iftiradan əl çəkməyib. Sanki özünə söz verib ki, ölən gününədək Azərbaycanın ümumi inkişafı, vətəndaşlarımızın rifah halının getdikcə daha da yaxşılaşması, dövlətimizin beynəlxalq nüfuzunun artması və ölkədə yaradılan sabit kriminogen durumla heç vaxt barışmayacaq. O, ancaq hərc-mərcliyin, özbaşınalığın, səfalətin hökm sürdüyü Azərbaycan arzulayıb ki, onu da görməyəcək....

Hər şeyə status yazan Ə.Kərimli birini də həmişə onun qanunsuz əməllərinə qarşı sədd çəkən polis əməkdaşlarına həsr edib. Görün bu ağzıgöyçək nə yazır: “Görürsünüz, polislər necə ürəkdən işləyir? Sizə asan gəlməsin, cəmi 2 gündə 21 min nəfərə cərimə yazıblar. Bir az da çalışsalar, büdcədəki kəsiri dolduracaqlar. İndi məlum olur ki, hökumət "qeyri-neft sektorunu inkişaf etdirəcəyik" deyəndə, onsuz da soğan kimi soyulmuş çarəsiz xalqı müxtəlif bəhanələrlə kütləvi cərimələməyi nəzərdə tuturmuş. Bəli, ölkəmizdə polis təkcə qəbiristanlıq sükutuna bənzər sabitliyimizi qorumur, artıq boş qalmış büdcəni doldurmaq da onluqdur. Rəsmən olduq polis dövləti".

Qərəzin, iftiranın dərəcəsinə baxın... Guya o bilmir ki, istər respublika əhəmiyyətli magistrallarda, həmçinin paytaxt Bakının, eləcə də bölgələrin küçə və prospektlərində nəqliyyatın hərəkətinə foto-video qeydiyyat funksiyasına malik ən müasir xüsusi texniki vasitələrin köməyi ilə nəzarət olunur. Yol hərəkəti qaydası əleyhinə olan inzibati xətalar məhz bu qurğular vasitəsilə aşkarlanır və real vaxt rejimində elektron sənəd formasında tərtib edilir. Məsələn, son üç gün ərzində respublika üzrə 31 minə yaxın yol hərəkəti qaydası əleyhinə olan inzibati xəta aşkarlanaraq sənədləşdirilib ki, bunların da 60 faizi məhz foto-video qeydiyyat funksiyasına malik olan xüsusi texniki vasitələr tərəfindən tərtib edilən elektron protokollar olub.

İndi sual yaranır: Avropa ölkələrinin istehsalı olan xüsusi texniki vasitələr “xalqı müxtəlif bəhanələrlə kütləvi cərimələməyi” bacararmı?! Məgər bu cihazlar dövlət, büdcə, iqtidar-müxalifət kimi anlayışları bilir ki? Əlbəttə, yox! Həmin cihazlar sosial-siyasi statusundan asılı olmayaraq inzibati xəta törədən istənilən vətəndaşın - sürücünün qayda pozuntusunu qeydə alıb, elektron protokol tərtib edərək ünvanlara göndərir. Buna rəğmən, sözügedən cihazların guya xalqa qarşı olduğunu iddia eləmək qərəzi, iftiranı, yalanı özünə “çörək ağacı” bilən kəslərin ağlına gələr. Gülməlidi, deyəsən, Ə.Kərimli polis əməkdaşlarının ünvanına qarayaxmadan bir şey çıxmadığını görüb, indi də keçib elektron cihazları günahlandırmağa...

Millətinin, vətəndaşının təhlükəsiz yaşamasını istəyən hər bir kəs fərqindədir ki, 3 gündə 31 min yol hərəkət qayda pozuntusunun aşkarlanması onlarla, bəlkə də yüzlərlə insanın həyatda qalması, şikəst, əlil olmaması, ailələrin yasa batmaması deməkdir. Onu da fəxrlə deyim ki, məhz yollarda, ictimai yerlərdə quraşdırılan bu cihazlardan səmərəli istifadənin, eyni zamanda yol-patrul xidməti əməkdaşlarının hava şəraitindən asılı olmayaraq gecə-gündüz apardıqları xidmətin nəticəsidir ki, yol-nəqliyyat hadisələrinin, belə qəzalarda ölən və yaralananların sayı nəinki ildən-ilə, tam məsuliyyətlə deyərdim ki, hətta aydan-aya azalır. Bunu bütün vətəndaşlarımız, bütün sürücülər də yaxşı bilirlər və təqdir edirlər. Bircə bilməyən siyasi partiya sədri, hüquqşünas, “dahi siyasətçi” olmağıyla lovğalanan Əli Kərimli imiş. İndi o da bildi. Bundan sonra yalnız həqiqətdən yazıb-yazmayacağı qalır onun öz vicdanına...

# Sərkisyan daxili və xarici siyasi problemlər məngənəsində

**Aprel döyüşlərində Azərbaycan ordusunun kiçik həmləsi Ermənistan ordusunun zəifliyini, 10-15 adamın əlini-qolunu sallayaraq polis alayının binasını tutub orada yüksək rütbəli polis rəislərini girovluqda saxlaması isə daxili təhlükəsizliyin təmin olunması ilə bağlı problemləri ortaya çıxardı. Ermənistanda iki həftədən çox davam edən “Sasna tsrer” böhranının gətirdiyi çalxantılar qonşuda siyasi sabitliyin də həssas vəziyyətdə olduğunu nümayiş etdirdi.**

## Ermənistan mətbuatı siyasi hakimiyyətin illərlə yürütdüyü siyasətin hərtərəfli çürüdüyünü yazır; “iqtidar resurslar planında artıq iflasa uğrayıb və tükənmə ərəfəsindədir”



Ermənistan mətbuatı isə bütün bu olub-bitənlərdən təbii ki, Sərkisyan və onun xarici və daxili havadarlarını məsul tutur.

Erməni qəzetləri Sərkisyanın kadr dəyişiklikləri yolu ilə vəziyyətdən çıxış yolu axtardığını qeyd edir.

“Ermənistanın baş prokuroru Gevorq Kostanyanın istefasından sonra Milli Təhlükəsizlik Xidmətinin istintaq idarəsinin rəisi də vəzifəsindən uzaqlaşdırılıb. Daha sonra Serj Sərkisyan MTX direktorunun birinci müavinini də işdən azad edib. Bundan başqa, Ermənistan polisinin rəisi Erebuni və Nor Nork rayonlarının polis rəislərini işdən çıxarıb”, - deyə 1.in.am saytının təhlilçisi Aram Amatuni yazaraq bildirir: “Bütün bunlar onu göstərir ki, Ermənistan hakimiyyəti daimi axtarışdadır. Lakin iqtidar resurslar planında artıq iflasa uğrayıb və daxilən tükənmə ərəfəsindədir. Sistem daxilində inamsızlıq, qarşılıqlı şübhə hökm sürür”.

Problem isə ondan ibarətdir ki, Ermənistanda indiki hakimiyyət sistemini daima iki mövhum birləşdirib: pul və təhlükəsizlik. İndiki vaxtda hər ikisi artıq dibə vurub. Bu proses davam etdikcə daxili etibarsızlıq və dağınıqlıq dərinləşir, birliyin əsasları günü-gündən incəlir, hər kəs şübhəli vəziyyətə düşüb. İndi sistem, sadəcə, birinci addımla yıxılacaq vəziyyətdədir. Lakin heç kimin bunu etməyə cəsarəti yoxdur" deyə müəllif yazaraq davam edir:

“Hakim sistem tədricən ehtiyatlılığa və ya qorxuya ümid bəsləyib. İndi onları hansısa hədəf deyil, ümumi şübhələr birləşdirib.

Əgər ümumi hədəf kollektiv yaradıcı coşğunu yaradırsa, şübhələr tam əksinə, prosesi doğurur. Burada hakimiyyətdaxili qruplar yumruq kimi daha çox özünə qapanmağa və sıxılmağa başlayır. Bu isə mərkəzdə güclü vakkumun əmələ gəlməsinə yol açır. Bu vakkum isə çox davam edə bilməz".

Ermənistanın “Aykakan Jamanak” qəzeti isə Sərkisyana çox yaxın olan baş prokuror Gevorq Kostanyanın istefasını iri həcmli korrupsiya hadisəsi ilə bağlayıb. Belə ki, Müdafiə Nazirliyinə tədarüklə məşğul olan 3 şirkətin Kostanyan və onun yaxın çevrəsi ilə sıx əlaqələri olduğu məlum olub.

Aprel döyüşlərindən sonra aparılan təhqiqatlar bu şirkətlərin fəaliyyətində böyük qanun pozuntularını ortaya çıxarıb.

Erməni mətbuatı Kostanyan üzərində qara buludların hələ bu ilin fevral ayında dolaşdığını yazır. Belə ki, həmin vaxt Serj Sərkisyan Müdafiə Nazirliyində tüğyan edən korrupsiya faktları ilə bağlı müşavirə keçirib.

Müşavirədən sonra Kostanyanın da iştirakı ilə Müdafiə Nazirliyinin özündə daha bir iclas baş tutub.

Ermənistan KİV-lərinə görə, əgər Kostanyanın yaxın çevrəsi həqiqətən orduya böyük həcmdə tədarüklər həyata keçiribsə, bu iclasın yalnız bir adı olub: bütün izləri silmək və hər şeyi nəzarət altına almaq.

Lakin aprel döyüşləri məsələyə öz “düzəlişlərini” gətirib.

“Aykakan Jamank”ın məlumatları doğrudursa, o zaman baş prokurorun istefası başqa tələtümləri özü ilə bərabər gətirəcək.

“Sasun qiyamı *(Sasna tsrer-in qiyamı)* Ermənistanın "Livanlaşdırılması" ilə bağlı konspiroloji nəzəriyyələri özü il bərabər gətirib. Lakin hər kəs bilir ki, bu qiyamın əsas səbəbi Ermənistan hakimiyyətindən olan narazılığın zirvə nöqtəsinə çatmasıdır", deyə David Stepanyan armenianreport-a yazır: **“Korrupsiya, başıpozuqluq, həyasızlıq, ədalətli məhkəmənin yoxluğu, ağır sosial şərait, habelə xarici siyasətdəki qeyri-müəyyənlik.... qiyamın əsas səbəbləri və motivasiyası budur. Təəssüf ki, heç kim ölkədə narazılıq telinin qırılacağına qarantiya verə bilməz”.**

Erməni mətbuatı bütün bu problemlər məngənəsində boğulan Sərkisyanın bu səbəbdən Milli Etimad Hökumətini qurmaqdan danışdığını düşünür. Analitiklərin fikrincə, bu, “Sərkisyan-Ter-Petrosyan və Köçəryan” üçlüyündən ibarət koalisiya şəklində ola bilər.

Sərkisyanın xarici arenada atdığı addımlar, daha doğrusu, vurnuxmaları isə mətbuatda ayrıca tənqid mövzusudur.

Erməni jurnalistləri Putinin Azərbaycan ziyarətindən sonra Sərkisyanın avqustun 9-da Moskvaya həyata keçirəcəyi rəsmi səfərdən sonra bir çox mətləblərə aydınlıq gələcəyini düşünür.

Lakin erməni müxalif mətbuatı, həmişəki kimi, bu məsələdə ən çox Rusiyaya yüklənərək Moskvanın erməniləre qarşı “haqsızlıq” etdiyini iddia edir.

**Erməni analitik Akop Badalyanın “Putin Əliyevə şantaj etməkdə kömək edəcək” məqaləsi də bu yöndədir.**

**“Putinin Azərbaycan səfərinin gündəliyində hərbi-texniki əməkdaşlıq məsələləri önə çıxacaq, başqa sözlə, Rusiya Azərbaycana yeni silah partiyası satmağa hazırlaşır. Görəsən, Rusiya** *(Putinin dediyi kimi-red.)* **münaqişə tərəflərinə öz reseptini niyə sırımağa çalışır. Bunu elə Azərbaycanı silahlandırmaq yolu ilə də edə bilər ki, Azərbaycan da öz növbəsində ya müharibə, ya da müharibə şantajı yolu ilə istədiyi bütün qərarları Ermənistana qəbul etdirsin” deyə Akop Badalyan yazaraq davam edir: “Rusiya uzun müddətdən bəri bunu həyata keçirməyə çalışaraq işi apreldəki müharibəyə qədər götürdü. İndi Kremldə başa düşürlər ki, Azərbaycanın silah arsenalını o həddə çatdırmaq lazımdır ki, onun ordusu 800 hektardan çox ərazini tuta bilsin”.**

Akop Badalyana görə, Rusiyaya bundan sonra öz payını Azərbaycanla razılaşdırması qalır: **“Hələlik isə Rusiya Ermənistanın hərbi resurslarını dağıtmaqla məşğuldur. Bundan ötrü isə Ermənistanın silahlı qüvvələrinin idarəçiliyi də tamamilə Rusiyanın yurisdiksiyası altına keçməlidir”.**

Akop Badalyan bununla bağlı özünəməxsus versiya da irəli sürüb: **“Məsələ ilə bağlı iyulun 19-da Rusiyanın bir neçə generalı iki ölkənin birləşmiş quru qoşunlarının yaradılmasını müzakirə etmək üçün Ermənistana gəldi. Bunun nə demək olduğu anlaşılmır. Ermənistan və Rusiya arasında hərbi birlik artıq mövcuddur və generalların bundan sonra nəyi müzakirə etdiyi məlum deyil. Qəribədir ki, Rusiya generalları İrəvanda polis alayının binasının tutulmasından bir gün sonra və ölkə daxilində siyasi böhran yaranması fonunda təşrif buyurublar”.**

Akop Badalyan Rusiyanın silah alınması üçün Ermənistana verəcəyi 200 milyonluq kreditin taleyinin də qaranlıq olduğunu düşünür:

**“Hər halda, Rusiya öz "yaxın müttəfiqi" Ermənistanla hərbi-texniki əməkdaşlıqla etdiyi müzakirələri, müttəfiq sayılmayan Azərbaycanla müqayisədə daha qapalı rejimdə aparır"** deyərək, Badalyan istehza edir...

“Ermənistan nə KTMT-dən çıxmağa, nə də NATO-ya girmək üçün texnologiyalara malik deyil. Bu səbəbdən Ermənistan üçün seçim etməyə deyil, bir-biri ilə zidd olmayan strategiyalarda iştirak etməyə imkan verilə bilər”. Digər analitik İqor Muradyan bir erməni saytında “ABŞ siyasətinin Avrasiya istiqamətləri” adlı məqaləsində yazır.

Muradyanın fikrincə, Ermənistan bu cür qapalı vəziyyətdə üfunətli bataqlığı xatırladır və oradan çıxmağa qadir deyil: **“Onu bu bataqlıqdan çıxarmağa nə qədər cəhd etsələr də mümkün olmur”.**

❑ **Vaqif HÜSEYN**

YENİ MÜSAVAT
N 171 (6492) 6 avqust 2016

# Müxalifət hansı məsələlərdə hakimiyyətin yanında ola bilər?

## Düşərgə təmsilçiləri "ümummilli maraqlar, Qarabağ məsələsində iqtidarla hər zaman birlik nümayiş etdirmişik" deyirlər

**Məlum olduğu kimi, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan avqustun 7-də İstanbul Yenikapıda keçiriləcək mitinqə müxalifət liderlərini də dəvət edib.**

Ərdoğan CHP lideri Kamal Kılıçdaroğlu və MHP sədri Dövlət Baxçalını, eyni zamanda AK partinin lideri, baş nazir Binəli Yıldırımı da mitinqdə çıxış etməyə dəvət edib.

Ərdoğanın müxalifətlə birlik nümayiş etdirməsi həm Türkiyə, həm də Azərbaycan cəmiyyətində maraqla qarşılanıb. Bu çağırış ölkə siyasilərinin dövlətçiliyə olan təhlükə qarşısında birləşməsi kimi qiymətləndirilib.

Bəs görəsən, Azərbaycanda iqtidarla müxalifət hansı məsələlərdə bu cür birlik mitinqi keçirə bilər? Bu məsələyə iqtidar və müxalifət liderlərinin münasibəti necədir?

"Yeni Müsavat" bu sualı bir neçə siyasi partiya liderlərinə ünvanlayıb.

**Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər "Yeni Müsavat"a açıqlamasında bildirib ki, Azərbaycanın milli maraqlarına xarici təhlükə olarsa, daxildə milli birliyə zəruri ehtiyac yaranarsa, ancaq o halda ölkənin xarici təhlükələrdən qorunması üçün belə bir birlik ola bilər:** "Hökumət belə bir təşəbbüslə çıxış edərsə, müxalifət də həmişə milli maraqları əsas götürdüyünə görə ona dəstək verə bilər. Bu, yalnız milli maraqlara, dövlətçiliyə təhlükə olduğu halda mümkündür. Bir


Sülhəddin Əkbər


Mirmahmud Mirəlioğlu


İqbal Ağazadə

də Qarabağ məsələsində müxalifət hər zaman birlik nümayiş etdirib. Bilirsiniz ki, illər öncə də hər zaman Azərbaycan müxalifəti bəyan edib ki, əgər Azərbaycan hakimiyyəti Ermənistan-Azərbaycan münaqişəsini hərbi yolla həll etməyə qalxarsa, müxalifət hətta öz siyasi fəaliyyətini də müvəqqəti olaraq dayandıra bilər və bu problemin həllində hakimiyyətə dəstək verə bilər. Bu bəyanat illərdir səsləndirilir".

KXCP sədri Mirmahmud Mirəlioğlu da vurğuladı ki, Azərbaycan müxalifəti ümummilli maraqlar, Qarabağ məsələsi və bəzi digər məsələlərdə iqtidarla hər zaman birlik nümayiş etdirib: "Bu birlik bir neçə dəfə sınaqdan çıxıb. 1994-cü ilin oktyabrında olub. Biz orada müxalifəti təmsil etmişik, mən özüm də orada müxalifəti təmsil etmişəm. Lakin bizə söz verməyiblər. 1995-ci ildə də Qarabağ məsələsində bütün müxalifət partiyaları parlamentə dəvət olunub və birlikdə bu məsələləri müzakirə ediblər. Avropa Şurasına daxil olmaq və ölüm hökmünün ləğv edilməsi məsələsində də müxalifət iqtidarı dəstəkləyib. Yəni təcrübədə bunlar var. Azərbaycanda bundan sonra belə bir birliyin olub-olmayacağı sualının cavabı iqtidardadır. Bu da çox cəlbedici bir sualdır. Yəqin ki, olar. Müxalifət 2014-cü ilin sonu, 2015-ci ilin əvvəlində də iqtidarla dialoqa çalışıb, danışıqlara girib. Yəni bizdə bu təcrübə var. Son olaraq aprel döyüşlərində, şəhidlərimizin dəfnində iqtidar-la-müxalifət birgə hərəkət etdi. Bəyanat səsləndirildi ki, biz ordumuzun yanındayıq, dəstək olmağa hazırıq".

**Ümid Partiyasının sədri İqbal Ağazadə də dövlət əhəmiyyətli məsələlərdə iqtidarla birgə mitinqlərə qatılmağa hazır olduğunu bildirdi:** "Bir çox məsələlər var ki, Azərbaycan müxalifəti olaraq biz iqtidarın yanında ola bilərik. Qarabağ məsələsində, dövlət təhlükəsizliyinə təhdid, xarici müdaxilə, demokratiyanın qorunması və sairlə bağlı hakimiyyət mitinq keçirərsə, müxalifət, o cümlədən Ümid Partiyası hakimiyyəti bu məsələlərdə dəstəkləyəcək. Düzdür, biz deyirik ki, hakimiyyət dövləti yanlış idarə edir, yanlış yanaşır. Lakin bu bizim dövlətimizə münasibətimiz deyil. Dövlətimizin müdafiəsi istiqamətində hər bir azərbaycanlı ilə, iqtidarda və ya müxalifətdə olmasından asılı olmayaraq hər kəslə bir ola bilərik. İnsanların siyasi mövqeləri bu məsələdə bizim üçün heç vaxt problem ola bilməz".

❑ Nərgiz LİFTİYEVA

# Razi Nurullayevin AXCP-sində nə baş verir?

## "Bura pula görə gələn insanlardan təmizlənir və təmizlənmə davam edəcək"

**Razi Nurullayevin rəhbərlik etdiyi AXCP-nin buraxıldığı, bir neçə partiya üzvünün bəyanat yaydığı haqda "Xural" saytı dünən geniş yazı yayıb. Yazıda qeyd edilir ki, Razi Nurullayevin iki müavini onu tərk edərək istefa veriblər, müavinlərdən Cavid Musazadə hətta bütün AXCP-nin buraxıldığını iddia edib. Sayt Cavid Musazadədən sitatlar qeyd edib:**



"AXCP-də olan haqsızlıqlar nəticəsində məni AXCP Suraxanı şöbəsindən xaric etmişdilər. Sonra heç bir təşkilatçılığım olmadan gənclər toparlanıb məni müdafiə etmişdilər. Sonra bizi AXCP Nərimanov şöbəsinə bərpa etmişdilər. Sonra bir müddət keçdi, oradan da Məmməd İbrahimin təşkilatçılığı ilə xaric edildik. Onların bu oyununa görə birləşib təşkilata sahib çıxmaq istəmişdik. Ancaq bütün zəhmətimiz hədər getdi. Fundamental olaraq cəbhəçi olmayanların Cəbhəni mənimsəmək planı və Cəbhəni iflic bir quruma çevirməsi bizi olduqca narahat etdi. Kərimlini ittiham etdikləri bütün ittihamlardakı qınaqlarda göstərilən iddiaları bu gün bunların özlərinə etmək mümkündür. Həm də ondan qat-qat artıq şəkildə. Beləliklə, Cəbhə arxivləşdi. Saxta cəbhələrdə təmsil olunmaq istəmədiyimiz üçün artıq bu təşkilatların da hüquqi varlığı dövlət tərəfindən tanınmadığına görə, rəsmi arxivləşdiklərinə görə biz də bu qurumları buraxılmış hesab edirik. Cəbhəçi fəaliyyətimizi dayandırıb müstəqil fəaliyyətimizi formalaşdıracağıq. Dostlarımızla bərabər referendumla bağlı təşviqat qrupunu elan edəcəyik. Dövlətçiliyi əsas prinsip götürən, qrup, firqə maraqlarından, şəxsi maraqlardan uzaq olan dostlarımızla əməkdaşlığa hazırıq. Biz o formalaşmamış partiyanı buraxdıq. Formalaşan hissəsini də biz qurmuşduq, mənfəətini başqaları götürmüşdü. Bizə heç 1 faizi düşməmişdi. Özlərini qurucu elan etmiş Razi Nurullayev, Rafiq Daşdəmirli və digər bir-iki "siyasətçi"lərin adamı, ətrafı və tərəfdarı varsa, bizim keçirdiyimiz o qurultayın tən yarısı səviyyəsində bir tədbir keçirsin. Heç tən yarısını da demirəm, 100-150 nəfərlik bir dinc tədbir keçirib indi özlərini təsdiq etsinlər görək".

Sayt sədr müavini kimi təqdim etdiyi Fəxrim Abduləzimovun istefa verdiyini yazıb. F.Abduləzimovun da partiyanın sədri Razi Nurullayevə qarşı ittihamlar yağdırdığını qeyd edib.

**Razi Nurullayev isə "Yeni Müsavat"a açıqlamasında dedi ki, ona və partiyasına qarşı irəli sürülən ittihamların heç bir əsası yoxdur:** "Sadəcə olaraq, partiyaya əqidə, demokratiya uğrunda mübarizə aparmaq üçün deyil, pul qazanmaq məqsədi güdərək gələn şəxslərin təmizlənməsi gedir. Bu isə əslində partiyanın xeyrinədir, partiyanın sıralarında olan bu cür adamların sıradışı olması lazımdır. Mənə və AXCP-yə qarşı irəli sürülən fikirlər cəfəngiyyatdır. Partiyanın buraxıldığını elan etmək isə gülünc və qeyri-professional fikirlərdir. Bu gün partiya gücünü saxlayır, partiyamız bütövdür və AXCP-nin daha böyük planları var. Partiyanın yerli təşkilatları fəaliyyət göstərir, bütün strukturları, rəhbərlik yerindədir. Heç nədən narahatçılığımız, qorxumuz yoxdur. O yazının dərc olunduğu saytın rəhbəri Əvəz Zeynallının mənə qarşı qərəzi var. Mən bir neçə gün öncə də qeyd etmişdim ki, Əvəz Zeynallı daha çox reketçilikdə maraqlı bir jurnalistdir. Reketçiliyə görə də həbs olunmuşdu və bu gün də həmin fəaliyyəti davam edir. Mən Əvəz Zeynallını reket jurnalist hesab edirəm. Ona görə də yazdıqları mənim heç vecimə də deyil".

R.Nurullayev onu da dedi ki, hakimiyyət həmişə AXCP ilə mübarizə aparıb, bəzi daxili satqınlar isə hakimiyyətin maraqlarına xidmət ediblər: "Bu gün də əfsuslar olsun ki, bəziləri nəyəsə satılıblar. Rəhmətlik Əbülfəz Elçibəy deyirdi ki, tanklar qarşısında davam gətirənlər pul qarşısında duruş gətirə bilmirlər. İndi də belədir. Kimlərsə pul hərisliyi ucbatından özlərini əslində pis duruma qoyurlar. Amma bir yandan sevinirəm ki, partiyamız bu cür insanlardan təmizlənir və təmizlənmə davam edəcək. Kimsə partiyaya başqa məqsədlərlə gəlib qoşulursa, o burada qala bilməz. Mənim rəhbərlik etdiyim AXCP hakimiyyətə iddialı partiyadır. Bu gün bizim çox prinsipial mövqeyimiz var. Biz bu AXCP-ni quran zaman Azərbaycan siyasi sistemində bir yenilik yaratmış olduq və siyasətin yönü dəyişdi. Hazırda apardığımız siyasət bəlkə də bir çoxlarına görünmür, amma yaxın perspektivdə onun ciddi nəticələri olacaq. Kimsə də bizim əl-ayağımıza dolaşmaq istəyirsə, bunu bacara bilməyəcəklər. Bizi hakimiyyətə işləməkdə ittiham edənlərin əsassız olduğunu hələ də partiyanın qeydiyyatına alınmaması faktı bir daha sübuta yetirir. Hakimiyyət belə görünür ki, bizi havada saxlamağa üstünlük verdi. Əgər hakimiyyət adamı olsaydıq, bizi qeydiyyata alardılar. Biz bəhanə vermirik ki, hakimiyyət qanunsuz həbslər həyata keçirsin bizim partiyaya qarşı. Bizim partiya 2018-ci il prezident seçkilərinə hazırlaşır. Bu məqsədə xidmət etməyən partiya üzvü bizdən deyil, partiyada qala bilməz".

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 171 (6492) 6 avqust 2016



# Düzgün ixtisas seçimi

Zamin HACI
zaminhaci@gmail.com

**Yeddi yüz bala yaxın nəticə göstərən abituriyentdən hansı peşəni seçəcəyini soruşmuşdular, demişdi neft çıxarmaq uşaqlıq arzusudur. Son illərdə Bakı Ali Neft Məktəbi yüksək balla qəbulu ilə seçilir. Mən doğrusu, bunu anlamaqda çətinlik çəkirəm: neft sektoru bu uşaqları niyə cəlb edir ki? Çoxlu pul vəd etdiyi üçün? Axı bir az maraqlananda görürsən neft sahəsi bütün dünyada getdikcə perspektivsiz bir sahəyə çevrilməkdədir. Alimlər, iş adamları alternativ enerji ilə çalışan maşınlarla inqilab etməyə hazırlaşır. Xüsusilə "Tesla" şirkətinin şefi İlon Mask-ın Günəş enerjisi ilə çalışan avtomobillər sahəsində çox qabaqcıl texnologiyaları var.**

Ümumiyyətlə, sivil dünyada oxumuş gənclər kompüter mütəxəssisi, vəkil, hüquqşünas, həkim, mühəndis, dizayner, bioloq və sairə ixtisaslara maraq göstərir. Bizim xalqın isə neçə illərdir ancaq bir prioriteti var: "Bala, oxu, yaxşı pul qazan, bizi də dolandır". Sovetin vaxtında bu mənasız seçimlər üzündən ən pullu, rüşvətxor fakültə və ixtisaslarımız iqtisadçı, hüquqşünas, tarix müəllimi *(raykom olmaq ehtimalı, partiya işində qabağa getmək şansı bunda çox olurdu),* həkim ixtisasları idi, sonralar bu sahələrdə peşəkarlar yox, savadsız maklerlər, cibgir prokurorlar və hakimlərlə üzləşəndə, erməni yalanlarına cavab verməyə alim tapmayanda, sağ ayaq yerinə sol qulaq kəsən cərrahlar əldə edəndə başımızı tutduq, ancaq sonrakı peşmançılığın nə faydası?

Uzağa getmirəm, elə mən özüm təxminən bu prinsiplə "Narxoz"a girmişdim, öz arzum müəllim peşəsi idi, ancaq dədə-babadan müəllim olan və bunun iqtisadi ağırlıqlarını daşıyan ailəm məsləhət görməmişdi. Fikirləşirdilər Zamin "zavmaq"dan, gömrükçüdən, vergi inspektorundan-filandan olacaq, pulu kisə ilə daşıyacaq. Ancaq mən əvvəl-axır bu peşəni rədd elədim və ömrümdə bircə gün də iqtisadçı işləmədim. İndi gənclərə də məsləhət görərdim pullu işlər dalıyca qaçmasınlar, hər neftçilik oxuyana ofşor kisəsinin ağzını açmırlar, ən yaxşısı elə öz romantik arzularınızın, ürəyinizin səsinin ardıyca getməyinizdir. Nizaminin şeirində deyilən kimi: "Kamil bir palançı olsa da insan, Yaxşıdır yarımçıq papaqçılıqdan".

Əlbəttə, neftçi olmağı seçənlər orda da nəsə romantika, gənclik həvəsi olduğunu deyə bilərlər, ancaq bizi aldatmaq mümkün deyil. İndi bu neft işlərinin qəti poeziyası qalmayıbdır, ağlınız Sovet dövründə çəkilən populist "Neft daşları" mövzulu filmlərə getməsin. İndi neftçi deyiləndə adamın yadına ilk növbədə platformada yiyəsiz qalıb həlak olan onlarla bədbəxt insan düşür. Neçə aylar bəzilərinin cəsədləri türkmən sahillərindən tapıldı, bir çoxunun son mənzili isə Xəzər oldu.

Elə dövlət statistikası da bu yüksək keçid balının absurdluğunu göstərir. 2015-ci ildə 2014-cü ilə nisbətdə SOCAR-da işləyən neftçilərimizin sayı 2610 nəfər azalmışdır. Neft azaldıqca, qiymət indiki səviyyədə qalsa belə, bu neftçilərə ehtiyac azalacaqdır. Bu ixtisası seçib kimyaçı olmağın da Azərbaycanda heç bir perspektivi görünmür. Kimya üzrə magistraturanı da bitirmiş savadlı bir gənc tanıyıram, pendir sexində 300 manat maaşla laborant işləməyə məcbur idi.

Sonda onu da qeyd edim ki, hansı ixtisası seçirsiniz-seçin, ölkəmizdə onsuz Günəş doğur, bu isə yapizm Günəşidir, uca millətimizi daha ağ günlərə çıxaracaqdır! Yuxarıdakıları zarafat üçün yazmışam, çalışın indidən cib kəsməyin, üzə durmağın, yalan danışmağın bütün üsullarını mənimsəyəsiniz. Hərçənd bunlar da adama salamatlıq qarantiyası vermir. Gözü çıxan telekanalizasiyamız kimi. Vaxt var idi xalq hərəkatına vandal, quduz deyirdilər, ancaq Nuşirəvan müəllim pultun bir düyməsi ilə bunları yer üzündən sildi. Yerində isə "Günəş" adlı uşaq kanalı açdılar.

Açığı, bu konseptual "şən və hazırcavablar klubu" sistemindən mənim xoşum gəlir. Qıdıqlaya-qıdıqlaya öldürürlər.

Ancaq təəssüf ki, hamını qıdıqlamırlar. Bunun da ixtisas seçimi vardır. Pul (bal) toplaya bilərsən, ancaq ixtisası (hakimiyyətin damarını) düz seçməsən qıraqda qalarsan.



# Ərdoğanın Moskva səfərində Qarabağ mövzusu - gözlənti

## Elxan Şahinoğlu: "Rusiya-Türkiyə münasibətlərinin normallaşması və yeni inkişaf mərhələsinə qədəm qoyması Azərbaycanın da maraqlarına cavab verir"

## Elxan Mehdiyev: "Bu görüş dağılmış Rusiya-Türkiyə münasibətlərini yenidən dirçəltmək məqsədi güdür"

**"Türkiyə prezidenti Rəcəb Təyyub Ərdoğanın Rusiyaya rəsmi səfəri və bu ölkənin prezidenti Vladimir Putinlə görüşü hər iki ölkə üçün mühüm əhəmiyyət kəsb edir". "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu bu fikirləri "Yeni Müsavat"a açıqlaması zamanı bildirdi.**

Ekspert Türkiyə liderinin uzun sürən gərgin münasibətlərdən sonra şimala səfər etməsinin bir neçə aspektdən faydalı olduğunu vurğuladı: "Birincisi, iki ölkə faktiki 8 ay küsülü qaldı. Belə vəziyyət hər iki dövlətə zərər vururdu. Çünki iqtisadi, ticarət, enerji və regional əməkdaşlıqdan hər iki ölkə qazanırdı. Ona görə də sonda Ərdoğan vurulan təyyarəyə görə Rusiyadan üzr istədi. Münasibətlər normallaşma mərhələsinə qədəm qoyduqdan sonra bu, iki liderin ilk görüşüdür. Böyük ehtimalla, Peterburq görüşündə Ərdoğanla Putin münasibətləri əvvəlki vəziyyətə qaytaracaqlar. Bu sırada "Türk axını" layihəsinə start verilməsi, Rusiyanın Türkiyədə AES tikintisinə başlaması, turizm əlaqələri, vizaların yenidən yumşaldılması, tikinti sektorunun canlanması kimi mövzular yer alır. İkincisi, Ərdoğan həm Amerikadan, həm də Avropadan narazıdır. Amerika Fətullah Güləni Türkiyəyə ekstradisiya etmir, Avropa Birliyi ölkələri isə hərbi çevriliş cəhdinə, Türkiyə parlamentinin bombalanmasına və bu zaman yüzlərlə insanın qətlinə ikiüzlü yanaşma ortaya qoyur. Putin Ankaranın Vaşinqton və Brüsselə əməkdaşlığının soyumasından öz məqsədləri üçün istifadə etməyə tələsir. O, yenidən Türkiyəni qazanmağa çalışır və uğurları var. Birincisi, Türkiyədə hərbçi çevrilişə cəhddən sonra Ərdoğana ilk zəng edən məhz Putin oldu, ona dəstək ifadə etdi, ikincisi, üstündən bir neçə gün sonra Rusiya prezidenti türkiyəli həmkarını ölkəsinə dəvət etdi. Mən şübhə etmirəm ki, Rusiya-Türkiyə münasibətləri əvvəlkindən daha sıx olacaq".

Qeyd edək ki, Putin-Ərdoğan görüşü Rusiya prezidentinin Bakıya səfərindən bir gün sonra baş tutacaq. Yəqin ki, regionun iki nəhəng ölkəsinin liderlərinin görüşündə Azərbaycan məsələsi də müzakirə mövzusu olacaq, işğal altındakı Qarabağdan bəhs ediləcək. Ən azı ona görə ki, Qarabağ münaqişəsinin varlığı bütövlükdə regiona təhlükə yaradır. Digər tərəfdən, həm Ankara, həm də Moskva Azərbaycanın Rusiya-Türkiyə barışığına nail olunması istiqamətindəki cəhdlərindən xəbərdardırlar. Hətta Türkiyə rəsmiləri bir neçə dəfə Azərbaycan rəhbərliyinə barışdırıcı mövqeyinə görə təşəkkür ediblər. Bu mənada Moskva görüşü ilə bağlı bizi daha çox maraqlandıran müzakirələrdən Azərbaycan üçün hansı nəticələr əldə olunacağı ilə bağlıdır.

**Elxan Şahinoğlu hesab edir ki, Rusiya-Türkiyə münasibətlərinin normallaşması və yeni inkişaf mərhələsinə qədəm qoyması Azərbaycanın da maraqlarına cavab verir:** "Bu, Cənubi Qafqazda müsbət atmosfer yarada bilər. Doğrudur, bunun hələ ki Qarabağ münaqişəsinin həllinə müsbət təsirini söyləmək çətindir. Ancaq güman edirəm ki, Ərdoğan Putinlə görüşdə Kreml sahibinə belə bir mesaj da çatdıracaq ki, Dağlıq Qarabağ probleminin ədalətli həlli mərhələsi başlayarsa, yalnız Azərbaycan Ermənistanla kommunikasiya xətlərini açmayacaq, eyni addımı Türkiyədə də atacaq. Bu isə münaqişənin həllinə kompleks yanaşmadır. Yəni Ermənistan Dağlıq Qarabağ ətrafındakı rayonları qeyd-şərtsiz boşaldarsa, Türkiyə Ermənistanla sərhədi açmağa və bu ölkə ilə diplomatik münasibətlər qurmağa hazırdır. Ərdoğanın Putinə ünvanlayacağı bu təklif Azərbaycanın da maraqlarına cavab verir, yetər ki, rəsmi İrəvan birinci addımı atsın. Buna baxmayaraq, hələ ki, Moskvanın İrəvana təsir etməsinə hazır olmadığını düşünürəm".

**Yeri gəlmişkən, Ermənistan prezidenti Serj Sərkisyan bu ərəfədə Ermənistana çağırılıb. Putin-Ərdoğan görüşündən sonraya təsadüf edən görüşdə Rusiya liderinin təbeliyində olan Sərkisyana Qarabağla siyasəti ilə bağlı da "ev tapşırıqları"nı verəcəyini güman etmək olar. Politoloq:** "Bəli, Putin Ərdoğanla görüşdən bir gün sonra Ermənistan prezidenti ilə görüşəcək. Putinin iki seçimi var: birinci seçim odur ki, Putin Bakıda İlham Əliyevlə, Sankt-Peterburqda Ərdoğanla görüşlərinin detalları haqqında Sərkisyanı məlumatlandıracaq və ona Dağlıq Qarabağ ətrafındakı rayonları boşaltmağı məsləhət görəcək. İkinci seçim isə odur ki, Putin Sərkisyanla ancaq Ermənistandaxili vəziyyəti müzakirə edəcək və ona hər cür dəstəyini ifadə edəcək. Nəsə mən Putinin birinci seçimə üstünlük verəcəyini porqnozlaşdırmıram".

"Bu görüş Türkiyənin dağılmış Rusiya - Türkiyə münasibətlərini yenidən dirçəltmək məqsədindən doğur. Türkiyə prezidenti Ərdoğan dünyada izolə edilib. Onun antidemokratik addımları Türkiyəni də izolyasiyaya salıb və Türkiyə indiki zamanda təhlükəsizlik, iqtisadi və etibar baxımından öz tarixinin Birinci Dünya savaşından sonra ən pis dövrünü yaşayır. NATO üzrə müttəfiqlər, o cümlədən ABŞ və Almaniya ilə münasibətlər ən aşağı səviyyəyə düşüb. Çevriliş cəhdindən sonra Türkiyədə baş verən repressiyalar bu vəziyyəti daha da ağırlaşdırıb".

**Bu fikirlər isə konfliktoloq Elxan Mehdiyevə məxsusdur. Ekspert düşünür ki, indiki zamanda Ərdoğan özünə müttəfiq axtarır və Rusiya ilə dərin münasibətlər qurmağa hazırdır:** "Bu münasibətlər iqtisadi münasibətləri də aşacaq. Ərdoğan Putinin etibarını qazanmaq üçün daha da dərinə gedəcək. Ancaq onun Putinlə ən səmimi münasibətləri dövründə də erməni işğalı məsələsi ikitərəfli gündəmə gətirilməyib. İndiki bu həssas və psixoloji durumda bu məsələnin gündəmə gəlməsi heç ağlabatan deyil və gəlsə də, ümumu ifadələrdən kənara çıxmaz".

**E.Mehdiyev hesab edir ki, hazırda Ərdoğanı Qarabağdan da çox narahat edən məsələlər var:** "İkinci tərəfdən, Rusiya erməni-Azərbaycan məsələsini Türkiyə ilə müzakirə etmir və ikitərəfli rus-türk münasibətlərindən asılı olmayaraq səylərini davam etdirir. Rusiyanın hər hansı jestinin olacağına inanmıram, çünki normallaşmanı daha çox arzu edən Türkiyə tərəfi idi".

**Ekspertin fikrincə, Sərkisyanın səfərinə daha çox Putin-İlham Əliyev görüşündən sonraya təsadüf etməsi baxımından diqqət yetirmək lazımdır:** "Bu səfərin Putin-Ərdoğan görüşü ilə bağlılığı yoxdur. Rusiya prezidenti bu işə qoşulmuşsa, burada nəticə gözləməyə ümid artır".

Qeyd edək ki, ABŞ dövlət katibi Con Kerri avqustun sonunda Türkiyəyə səfər edəcək. Məlumatlara görə, Kerrinin səfərində Ankaranın təhvil verilməsini tələb etdiyi Fətullah Gülənin ekstradisiyası, habelə digər məsələlərin müzakirə ediləcəyi gözlənilir. Şübhəsiz ki, bu səfər həm də Vaşinqtonun Ankara-Moskva münasibətlərinin normal məcraya düşməsindən narahatlığını nümayiş etdirir. 15 iyul çevriliş cəhdindən sonra Türkiyə rəhbərliyinin ABŞ-la bağlı bir sıra sərt ifadələr işlətməsi fonunda Ankara-Moskva münasibətlərindəki yumşalmalar Qərbi təbii ki, razı salmır. İddialar var ki, cənab Ərdoğanın Moskva səfərində rusiyalı həmkarı ona Avrasiya İqtisadi Birliyinə üzvlük təklifi edə bilər. Hətta İncirlik hərbi bazasından Rusiya ordusunun istifadəsinə icazə verilməsi barədə müzakirələrin olması da istisna edilmir.

❑ Cavid TURAN

**Arif Hacılının 27 sentyabr 2014-cü ildə Müsavata başqan gəlməsi ilə bolşeviklərin 27 aprel 1920-ci ildə Azərbaycanın başına gəlməsi faktının hər ikisində də Müsavat və müsavatçılar böyük zərər çəkiblər...**

**Onu çoxundan yaxşı tanıyıram. 6 ay eyni kamerada olmaqla, 13 ay 15 günlük həbsxana yoldaşlığımız olub. Oralar nə demək, dünən ötəri yazdım...**

**Rauf ARİFOĞLU**



# Müsavat üçün 27 aprel və 27 sentyabr fəlakəti...

Nəyə əsəbiləşdiyini, nələrə üzüldüyünü, hansı yeməyi sevdiyini, çayı nə ilə içdiyini, yatanda başının hansı vəziyyətində ufaq xoruldadığını, söyəndə hansı ifadələr işlətdiyini, sevinəndə hisslərini necə büruzə verdiyini, necə oynadığını, nərd-domino oyunlarında uduzanda bir ayrı, udanda bir başqa adam olmasını, darıxanda nələr söylədiyini, cocuqluq hekayələrini, arzularını, xəyallarını..., hamısını bilirəm. Çox bərk tərləyər, kin saxlayar, amma söz saxlamaz... İlk baxışda etibarsız təsiri bağışlayar, "mənçi"dir; lakin sənin uğrunda fədakarlıqlar da yapar. Vəfasızdı, paxıldı, pisliyi unutmaz; ona yaxşılıq edənləri sevməz. Qarşısından azacıq geri çəkilənin üstünə getməz; bağışlamaz da; kiçik şeylərdən böyük düşmənliklər çıxardar. Böyük düşmənlikləri bitirəmməz - içinin konstitusiyası buna uyğun deyil. Düşmən bəllədiyi haqda yalan da danışar, üzünə də durar; lakin həmin andaca vicdanı onu yeyib-bitirər; obyektivliyi yalanından daha böyükdür... Pulu sevər, yaman da xəsisdir, lakin nəfsini gözəl kontrol edər. Mahiyyətcə qorxaqdı. Amma ictimai rəy olan yerdə ölümə qədər gedən cəsurluqlar da edər... Türməyə düşəndən düşənə namaz qılar, lakin çıxan kimi araq da içər; buna baxmayaraq, Allaha inamı səmimidir...

Bax, bu adam indi Müsavatın başqanıdır...

***

**Siyasətdə olmasaydı, yaxşı adam ola bilərdi. Siyasət onu dəyişir; insani münasibətlə siyasi maraqları uzlaşdıra bilmir. Manevr sıfır! Ustalıq sıfır!**

***

**O, çox yaxşı ikincidir. Birincilik onun işi deyil. Məhz bu səbəbdəndir ki, hazırda vəzifəcə birinci olduğu təşkilatda faktiki olaraq, yenə də ikincidir...**

***

Partiyanın başqanı olduğu qısa müddətdə hamı ilə dalaşmağı, Müsavatı təkləməyi, üstəlik, təşkilatı içəridən dağıtmağı, kiçiltməyi bacardı. Bomboş qərargah, solğun və iyli koridorlar, miskin bir çevrə... Onun Müsavata vurduğu zərər ancaq kommunistlərinki ilə müqayisə oluna bilər. Və müsavatçılar bu cür kütləvi şəkildə ancaq onun və kommunistlərin zamanında söyülüb, mənəvi-siyasi terrorlara məruz qalıb. Arif Hacılının 27 sentyabr 2014-cü ildə Müsavata başqan gəlməsi ilə bolşeviklərin 27 aprel 1920-ci ildə Azərbaycanın başına gəlməsi faktının hər ikisində də Müsavat və müsavatçılar böyük zərər çəkiblər...

O, bizim bolşevik istilasından sonra qurduğumuz və toparladığımız, bərpa etdiyimiz Müsavatı darmadağın etdi. Son 29 ilin siyasi hadisələri fonunda yetişən və ölkədə tanınan, etimad edilən bir çox siyasi fiqurlar təşkilatdan gedib. Partiya o qədər kiçilib ki, artıq Arif Hacılı orada böyük görünür. Əski halında, - iki il öncəyə qədər isə təşkilatda onun kimi ikinciliyə iddia edən ən azı, 15 nəfər var idi. İndi onlar yoxdurlar. Siyasi vitrin də, partiyanın strukturları da, siyasəti, strategiyası, taktikası - hər şeyi darmadağındır. Təşkilatdaxili demokratiyadan element belə qalmayıb... Hər dəfə panik vəziyyətdə əvvəllər düşmən bildiyi Əli Kərimlinin ayağına gedir, o da buna müxalifət pasportu vermədən, geri yollayır...



Arif Hacılı əməkdaşımız Röya Rəfiyeva ilə barışarkən

***

İddialar var ki, onun seçkisində saxtakarlıqlar olub, başqanlığı legitim deyil. Buna etiraz edən çoxsaylı müsavatçılar da tapıldı - proses hələ də məhkəmə aşamasında davam edir. *(Bu barədə geniş yazacaq, faktları təqdim edəcəyik).*

***

Lakin olanlar oldu. Çağdaş müsavatçıların, elə mənim özümün də Rəsulzadədən sonra Müsavatın simvolu saydığım İsa Qəmbər onun arxasında durdu, üsyanı və bütün iddiaları üzərinə çəkdi; yeni başqanı qorudu; biz də ona saygı və inamımıza görə fərağat durduq; fəqət "gedəcəyik" qərarını dərhal elan etdik; "indi etməyin, zaman keçsin, gedərsiz", - xahişini qəbul edib, məcburi biət duruşu sərgilədik. Enində-sonunda, biz hər şeyimizi ona - İsa Qəmbərə və Müsavata həsr etmişdik. O elə istədi deyə, təşkilatdakı müxaliflərə qoşulmadıq, gücləndirmədik, onlara verdiyimiz meydanı azaltdıq, sonra kəsdik, bilirdik ki, onsuz da hər iki halda Müsavat zərər çəkəcəkdi; üstəlik, İsa Qəmbər üçün onun özündən daha artıq isaqəmbərçi ola bilməzdik, gülməli görünərdi...

***

Arif Hacılı ilk vaxtlar özünü də şaşırtan fərqli performans ortaya qoydu. "Gəlin qucaqlaşaq", deyə, hamıya qollarını açdı. Toparlanması üçün zamana ehtiyacı vardı - ilan dili çıxardaraq, məndən, qəzetdən, köşə yazarlarımızdan Qubad İbadoğluna, Tural Abbaslıya, digər narazılara və müxaliflərə yer verməməmizi istəyirdi. Qəzetimizə - ayağımıza qədər gəldi. Redaksiyada qarşısına çıxanı qucaqlayırdı; Tural Abbaslının tərəfdarı olan və əleyhinə statuslar yazan xanım müxbirimiz Röya Rəfiyevanı da qucaqlamağa fürsət tapdı. Çox güldük. Amma əslində səhnə ağlamalı idi...



Bu rolun bitəcəyi, onun özünə dönəcəyi bəlli idi. Riyakarlıq edirdi, bizi qucaqlayanda, əminəm ki, boğub öldürmək də ürəyindən keçirdi; lakin edəmmirdi...

Arifin, bir siyasətçi kimi miqyası elədir ki, yanında güclü adam istəmir. Saxlaya da bilməz - bilmədi də...

***

**Həyatımdakı iki böyük layihədən biri olan Müsavat Partiyasının bərpasından üzü bu yana, bu təşkilatın başına gələn ən böyük fəlakətə sakitcə tamaşa etmək zorunda idim. Müsavat, əksəriyyəti ilə onun ideologiyasının və bayrağımızın iki xəttindən - türkçülükdən və İslamdan imtina edən bir qrupun əlinə düşmüş, orada azlıqda qalan dostlarımız da bizim kimi gözləmək, dözmək zorunda qalmışlar.**

***

Böyük Başqan mənim ünvanıma "İlham Əliyevlə barışdı", kiçik başqan isə "təslim oldu", deyirlər. Lütf etmişlər. Allah razı olsun. Məni böyüdürlər, miqyasımı olandan daha yüksəyə tuturlar. Regionun ən güclü siyasi lideri - prezident İlham Əliyev ya mənimlə barışmış, ya da məni təslim almışdır...

Arifin qardaşı, partiya funksioneri Mustafa Hacıbəyli isə iddia edir ki, başqanların ikisi də birdən haqsızdı, "sən satılmısan".

Daha çox Əli Kərimli dəstəsinin leksikonudur, düz 10-12 ildir ki, bu iddianı üstümüzə yağdırırlar. Lakin onlar da hələ indiyə qədər aydınlaşdıra bilməyiblər: bir özəl qəzetin sahibi olaraq mən onların nəyini və haraya satmışam?

***

**Üç modelin üçü də məqbulumdu. Üçünü də qəbul edirəm. Amma Allahı sevərsiniz, daha bəsdi, arvad kimi az deyinin, gedin öz işinizlə məşğul olun. 1989-cu ildə qurduğum "Yeni Müsavat" media qrupunu götürüb, siyasi bataqlıqdan kənara çəkilmişəm. Fəaliyyətimi qəzetçilik xətti ilə davam etdirəcəyimi bildirib, öz ofisimdə, 20-23 illik iş yoldaşlarımla möhtəşəm layihəmi davam etdirmişəm. Sizin nə işinizə qalıb, mən nə edirəm, necə edirəm???**

***

Müxalifətdə dəb halını alıb, kim xoşlarına gəlməsə, "satqın" yarlığı vururlar. Hacılı qardaşları təkcə mənəmi deyir bunları? Bir qəzetləri qaldırın, illərini, həyatını, sağlamlığını Müsavata sərf etmiş, zülmlər və zindanlar çəkmiş minlərlə hərəkat üzvü, partiya rəhbərliyində təmsil olunan dəyərli simalar "satqın" damğası ilə kənara atıldılar.

***

Mustafa əslində gerçəkdən, yaxşı oğlandı. Döyüşçüdü, qazidi, gözəl jurnalistdi, Arifdən fərqli olaraq, təmiz, kinsiz ürəyi, bağışlama yetənəyi var. Üstünə, həm də yaxşı qardaşdı - Arifin qarşısında kim olsa, böyük qardaşı kiminlə toqquşsa, Mustafa düşünmədən, tərəddüd etmədən öz qardaşının tərəfini tutur. Arif partiya başqanı yox, kriminal avtoritet olsaydı, indi Mustafa ona görə neçə-neçə adamları yortmuşdu... *(Vaxtilə, indi feysdə mənim ünvanıma yazdıqlarından daha ağır iddia və ifadələri, kabinetinə girərək, Böyük Başqana da söyləmişdi... )*

Əminəm ki, Arifin qardaşı olmasaydı, o, içindəki ədalət tərəzisinə görə məhz indi yeni başqanın qarşısında olacaqdı!

***

Mənsə özümü və qəzetimi Arif Hacılının qarşısında bilmirəm. Bizim öz işimiz, yolumuz var. Arif Hacılı iddia edir ha, "qəzetin siyasi kursu onlarla uyğun gəlmir". Bax, məhz bu nəticə üçün işləyirik! Qəzetin siyasi kursu olmur, yoldaş komsomol! Siyasi kurs partiyalarda olur, qəzetin informasiya siyasəti olur; bu da daxili məsələdir; oxucu ilə qəzeti yönəldənlərin özəl mövzusudur. Bir partiya başqanı bir qəzetin üstünə "siyasi kursa" görə hücum edirsə, çox ayıb edir, bu qələtini mütləq düzəltməsi lazımdır.

***

**Tutaq ki, 1-2 ayı da mənimlə yola verdiniz - arada biz də ufaqdan buna cavablar yazdıq. Bəs sonra? Axı Arifin və onun dəstəsinin mandatı var - Müsavat başqanı, müxalifət lideri sayılır. Axı nə zaman bu mandata uyğun fəaliyyətə başlayacaq?**

**Minlərlə insan xəyal və ümid qırıqlığına düçar olub. Arif Müsavatı da, onunla bərabər minlərin şansını, arzu və siyasi iddialarını da demək olar ki, bitirib, qurtarıb.**

**Arif Hacılı tarix, Müsavat adı və müsavatçılar, o cümlədən bu partiyada haqq olan hər kəs qarşısında böyük cinayət işləməkdədir. Azərbaycanın milli təsanüd modelini siyasi intriqalar yuvasına, şər qərargahına çevirib.**

**Əslində özünü müsavatçı sayan hər kəs indi ayağa qalxıb, onu durdurmalı, təşkilatı bu fəlakət başqandan qurtarmalıdır.**

**Biz də bu səhnələrin fotosunu çəkib, xəbərlərini verməyə hazırıq.**

YENİ MÜSAVAT
N 171 (6492) 6 avqust 2016

# Sahibkarlara şad xəbər: prezidentin yeni sərəncamı vergi yükünü azaldacaq

## İqtisadçı ekspert: "Ən önəmlisi bu sərəncamın verilməsi, daha önəmlisi isə onun icrasıdır"

**Azərbaycan prezidenti avqustun 4-də "2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri"nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında sərəncam imzalayıb. Təsadüfi deyil ki, iqtisadçılar bu sərəncamı şərh edərkən Azərbaycan iqtisadiyyatında müsbət yeniliklərə səbəb olacağını qeyd ediblər. Bəs sərəncamda nələr nəzərdə tutulur və hansı müsbət təsirləri ola bilər?**

**İqtisadçı ekspert Vüqar Bayramov** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bu sərəncam Azərbaycan iqtisadiyyatı üçün çox pozitiv bir yenilikdir: "Sənədin məzmunu onu göstərir ki, onun hazırlanmasında xarici təcrübədən də istifadə olunub, yəqin ki, xaricdən ekspertlər də dəvət olunub. Bu sərəncamın Azərbaycan iqtisadiyyatına müsbət təsir edəcəyi gözlənilir. Sözügedən sərəncam vergi sisteminin beynəlxalq praktikaya tam uyğunlaşmasına şərait yaradacaq. Bu sənəddə bizim uzun müddət müzakirə etdiyimiz və eləcə də mənim bu ilin fevral ayında təşkil edilən 5-ci Vergi Forumunda qeyd etdiyim xeyli sayda məsələlər öz əksini tapıb. Həmçinin sənəddə nəzərdə tutulan fəaliyyətlərin reallaşması vergi yükünün ciddi şəkildə azalmasına səbəb olacaq. Bu baxımdan, sərəncam vergi dərəcələrinin optimallaşdırılması baxımdan olduqca mütərəqqi sənəd hesab edilə bilər".

**Ekspertin fikrincə, sərəncamın necə icra edilməsi də çox həlledici rol oynayacaq:** "Ən önəmli məqam bu sərəncamın verilməsidir, daha önəmli məqam isə onun icrasıdır. Yəni hansı vergilər üzrə azalmalar olacaq, vergi yükü hansı formada aşağı salınacaq? Vergi dərəcələrinin, yoxsa vergi növlərinin azaldılması üzrə olacaq? Əlavə dəyər vergisi hansı formada aşağı salınacaq? Hansı sektorlar üzrə ƏDV azaldılacaq? Bütün bunlar çox önəmlidir. Vergi güzəştləri və vergilərin diferensiallaşması ilə bağlı məsələnin bir müddətdir aktual olduğunu nəzərə alsaq, bunun da tətbiqi çox vacibdir. Sərəncamda əksini tapan qeydlər üzrə verilən tapşırıqlar olduğu kimi həyata keçirilərsə, bu, Azərbaycan iqtisadiyyatına müsbət təsirlərə malik olacaq. İqtisadiyyatımız bu sənədin icrasından faydalana biləcək. Önəmli məqamlardan biri də odur ki, prezident bu sərəncamın icrası üçün müvafiq dövlət qurumlarına 3 ay vaxt verib. Bu 3 aydan sonra sərəncamın nəticəsi olaraq hansı islahatların aparıldığını biz görə biləcəyik. Xüsusən vergi yükünün azaldılması ilə bağlı islahatlar aparılarsa, bu sərəncam qeyri-neft sektorunun inkişafına müsbət təsir göstərəcək".

**İqtisadçı ekspert sərəncamda qeyd olunan maddələri də özünün facebook səhifəsində şərh edib. Həmin şərhlərdən ən önəmli maddələri burada qeyd edirik.**



Sərəncamın birinci maddəsində qeyd edilir ki, qanunvericiliyin tələblərinə əməl edilməklə, vergi ödəyicilərinin optimal gəlirliliyini təmin etmək və investisiya mühitini daha da yaxşılaşdırmaq məqsədilə vergi yükünün azaldılması və inzibatçılığın yüngülləşdirilməsi nəzərdə tutulur. Yəni bu, bir sıra vergi dərəcələrinin aşağı salınması, bəzi vergi növlərinin ləğv edilməsi və o cümlədən vergi nəzarətinin sadələşdirilməsi və xüsusən də elektron audit sisteminin tətbiqi formasında öz əksini tapa bilər.

Həmçinin sərəncamda qeyd edilir ki, kiçik və orta sahibkarlığı stimullaşdırmaq, pərakəndə ticarətdə rəqabət mühitini təmin etmək və vergi yükünü optimallaşdırmaq məqsədilə pərakəndə ticarət fəaliyyəti ilə məşğul olan vergi ödəyicilərinin əlavə dəyər vergisi üzrə vergitutma obyekti malların satış qiyməti ilə malgöndərənlərə ödənilən qiymət arasındakı fərq (ticarət əlavəsi) hesab edilərək, verginin həmin məbləğdən hesablanması ilə bağlı qanunvericiliyə dəyişikliklərin edilməsi nəzərdə tutulub. Yəni Vergi Məcəlləsinə əsasən, ƏDV növü üzrə vergitutma obyekti kimi malların satışı, istehsal və qeyri-istehsal xarakterli xidmətlərin dəyəri əsas götürülür. Bu vergi istehsal və tədavül prosesinin hər bir mərhələsində alqı və satqı arasındakı fərqdən ödənilən vergi kimi çıxış edir. Yeni qaydalara əsasən, pərakəndə ticarətdə ƏDV üzrə vergi tutma obyekti ticarət əlavəsi olacaq ki, bu isə sözügedən fəaliyyət növü üzrə çalışanların gəlirlərini stimullaşdıracaq. Bu zaman pərakəndə satış ilə məşğul olanlar, o cümlədən supermaketlər daha az vergi ödəmiş olacaqlar".

Sərəncama görə, topdan və pərakəndə ticarətlə məşğul olan vergi ödəyicilərini fərqləndirən meyarlar müəyyən ediləcək. Yəni topdan və pərakəndə ticarətlə məşğul olan vergi ödəyiciləri üçün daha konkret meyar və ya sərhədlərin müəyyənləşdirilməsi və bu kontekstdən topdan və pərakəndə satış ilə məşğul olanlar üçün fərqli vergi yüklərinin müəyyənləşdirilməsinə səbəb ola bilər. Bu zaman bu ticarət növləri üzrə fərqli vergi güzəştləri tətbiq edilə bilər.

Sərəncamda əksini tapan digər bir məsələ isə "Tax free" sisteminin hava limanından başqa digər sərhəd buraxılış məntəqələrində də tətbiq olunmasıdır. Digər bir məqam isə sərəncamda uzun müddətdir gündəmdə olan diferensiallaşdırılmış əlavə dəyər vergisinin tətbiqi nəzərdə tutulur. Digər bir dəyişikliyə görə, vergi orqanları kameral yoxlamaları yalnız vergi bəyannamələrinin təqdim edildiyi gündən sonrakı 30 gün ərzində apara bilərlər. Məsələn, sahibkar vergi bəyannaməsini təqdim edibsə və növbəti 30 gün ərzində vergi orqanları həmin sahibkarlıq subyektində kameral yoxlama aparmayıblarsa, daha sonra onların həmin sahibkarla bağlı sözügedən yoxlamanı aparmaq hüququ yoxdur.

Bundan başqa, sərəncamda ölkə iqtisadiyyatı üçün çox önəmli olan bəzi maddələr nəzərdə tutulur. Yenilikləri xarici təcrübənin Azərbaycanda tətbiqi kimi də dəyərləndirmək olar.

❑ **Nərgiz LİFTİYEVA**

# Banklar əmanətləri necə qaytaracaq?



## Əmanətlərin Sığortalanması Fondunun vəsaiti əmanətləri geri qaytarmaq üçün kifayət deyil, Mərkəzi Bankdan borc da vəziyyəti düzəldə bilmir...

**Bankların bağlanmasına yenidən başlanması əmanət problemini də aktuallaşdırıb. Əhali digər banklarda qalan əmanətlərini geri çıxarmaqla bərabər, pullarının batacağı təhlükəsi ilə də qarşı-qarşıyadır. Bağlanan banklarda pulları qalan əmanətçilər də narahatdırlar, onların pulu ödəniləcəkmi? Ekspertlərin prosesin necə gedəcəyi yönündə proqnozları fərqlidir.**

**İqtisadçı alim Fikrət Yusifov** məsələ ilə bağlı musavat.com-a bildirib ki, bu prosesdə problem olmamalıdır: "Bu ilin fevral ayında prezidentin müvafiq sərəncamı ilə banklarda olan bütün əmanətlər üç il müddətinə tam sığortalandı. Bu, o deməkdir ki, hər hansı bir hadisənin baş verməsindən asılı olmayaraq, vətəndaş bankda olan əmanətini tam şəkildə ala biləcək. Müəyyən çətinliklərlə üzləşən bəzi banklar əhalinin əmanətlərini qaytara bilmədikdə bu mexanizm işə düşəcək. Əmanətlərin Sığortalanması Fondunun bu məqsəd üçün vəsaitləri çatmadıqda belə fond dövlət zəmanəti ilə vəsaitləri cəlb edib bu problemi çözməyə borcludur. Artıq ilk belə addım atıldı. Maliyyə Nazirliyi Mərkəzi Bankın bu məsələ ilə bağlı müraciətinə baxaraq Sığorta Fonduna cəlb edilən vəsaitlər üzrə zəmanət verilməsi barədə qərar qəbul etdi".

**Ekspert Natiq Cəfərli isə musavat.com-a qeyd edib ki, problemi mütləq şəkildə həll etmək mümkünsüz olacaq:** "Rəsmi məlumata görə, bağlanan dörd bankda əmanətlərin həcmi təqribən 160 milyon manat idi. Mərkəzi Bank da Əmanətlərin Sığortalanması Fonduna yüz milyon manatlıq kredit xətti açdı. Çünki fondun demək olar ki, resursları tamamilə tükənmişdi. Hətta böyük banklardan biri olan "Standart Bank"la bağlı problemlər bu gün də yaşanır, insanlar əmanətlərini çıxara bilmirlər. Təqribən 600 milyon manata yaxın əmanət tək elə "Standart Bank"da yığılmışdı. Yəni düşünürəm ki, böyük bir fürsətdir. Hissə-hissə problemi həll edəcəklər. Ən azından ona görə ki, ajiotaj yaranmasın. Ciddi ajiotaj yaransa, insanlar digər banklardan əmanətlərini kütləvi şəkildə geri çəkəcəklər, onsuz da çəkirlər. İnsanların sakitləşməsi üçün əmanətlərin qaytarılmasında müəyyən irəliləyiş olacaq. Amma problemin kökündən həll olunacağını söyləmək çətindir. Çünki Əmanətlərin Sığortalanması Fondunun vəsaiti bütün əmanətləri geri qaytarmaq üçün kifayət deyil".

**N.Cəfərlinin əmanətçilərin atacağı addımlarla bağlı bildirib ki, sığortalanmış əmanətləri Əmanətlərin Sığortalanması Fondu qaytarmalıdır. Sığorta düşməyən əmanətlər də var:** "Uzunmüddətli, 30 min manatdan yuxarı məbləğdə də 12 faizdən yuxarı əmanətlər sığortalanmayıb. Burada problem olacaq. Ancaq məhkəmə yolu ilə vətəndaş əmanətini bankdan və bankın qəyyumundan istəmək haqqına sahibdir. Vətəndaşlar vaxtında Əmanətlərin Sığortalanması Fonduna müraciət etməlidir, fonddan aldığı cavab əsasında öz addımlarını atmalıdır".

**Qeyd edək ki, əksər ekspertlər bağlanan banklardakı əmanətlərlə bağlı vətəndaşların ciddi problem yaşayacağını vurğulayırlar. Ekspert Əkrəm Həsənov məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, əmanətçilər ciddi problem yaşayacaqlar:** "Əmanətlərin Sığortalanması Fondu bağlanan banklardakı əmanətləri qaytarmaq üçün Mərkəzi Bankdan kredit götürüb. Mərkəzi Bankın onsuz da vəsaiti gündən-günə azalır. Amma burada başqa söhbət var. Banklarda, xüsusən də "Parabank"da sığortalanmamış əmanətlərin məbləği çoxdur. Çünki "Parabank" çox yüksək faizlərlə əmanət cəlb edirdi. Orada əmanətlərin sığortası yoxdur, həmin pullar batdı. Həmçinin sahibkarların həmin banklarda, xüsusən "Zaminbank" və "Parabankda" pulları batdı". **Ekspertin sözlərinə görə, Maliyyə Bazarlarına Nəzarət Palatası bankları bağlayarkən sığortalanmamış əmanətlərin çox olduğu bankları nəzərə alıb:** "Əslində may ayının əvvəlində palatanın rəhbəri Rüfət Aslanlı vətəndaşları sakitləşdirdi ki, yaxınlarda banklar bağlanmayacaq. Martın 1-də "Əmanətlərin sığortalanması haqqında" Qanun qüvvəyə mindi. Hesab edirdik ki, qanundan sonra artıq bankları bağlamaq sərf etməyəcək. Palata isə banklardakı durumu araşdırandan sonra bu addımı atdı. Bu, o deməkdir ki, MB o bankları hələ o zaman bağlamalı idi, güzəşt etdi".

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 171 (6492) 6 avqust 2016

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Avqust Qarabağ danışıqlarında sıçrayış ayı olacaqmı?

Siyasi təhlilçilərin təxminləri fərqlənsə də, bir məsələdə yekdillik var: problemi təzədən dondurmaq üçün zaman qalmayıb; **azərbaycanlı ekspert:** "Münaqişənin həllinin uzanması regionu təhlükəyə atmaq deməkdir..."

**Avqust ayı Qarabağ danışıqlarının intensivləşdirilməsi üçün əlverişli bir fürsət ola bilər, təbii ki, əgər vasitəçi dövlətlər və işğalçı Ermənistan bu fürsəti lazımınca qiymətləndirərsə. Hələ ki bu yöndə ümidverici fəallıq gözə dəymir. Belə görünür, ATƏT-in Minsk Qrupu həmsədrlərinin özləri də bir elə inamlı deyillər.**

"Regiona bu yaxınlarda səfər etməklə bağlı xüsusi planımız yoxdur, lakin prezidentlərin növbəti görüşünün təşkil edilməsi üçün tərəflərlə müntəzəm təmasları davam etdiririk". Bunu Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik APA-nın həmsədrlərin regiona mümkün səfəri ilə bağlı sorğusuna cavabında deyib.

**Uorlik ABŞ Nümayəndələr Palatasının üzvü Cim Kostanın avqust ayındakı rəsmi təmaslar barədə son açıqlamasında da münasibət bildirib:** "Konqresmen Kostanın Qarabağ münaqişəsinin sülh yolu ilə həlli yollarının tapılmasında bizimlə birgə işləmək marağını qiymətləndiririk. Vyana və Sankt-Peterburq görüşləri təmas xəttində zorakılığın azaldılması, substantiv danışıqların yenilənməsi və toqquşma riskinin azaldılması üçün təkliflərin irəli sürülməsi baxımından uğurlu olub. Sülh prosesindəki bu müsbət məqamın prezidentlərin növbəti görüşünün təşkilinin davam etdirilməsi vacibdir. Həmsədrlər prezidentlər arasında dialoqun davam etdirilməsinə sadiqdirlər və onların tezliklə bir araya gətirilməsi imkanlarının yollarını öyrənirlər".

Xatırladaq ki, bir neçə gün qabaq ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvü Cim Kosta news.am saytına müsahibəsində avqust ayında Azərbaycan və Ermənistan xarici işlər nazirləri Elmar Məmmədyarov və Edvard Nalbəndyanın həmsədr ölkələrin xarici işlər nazirləri ilə görüşünün olacağını bildirmişdi.

*****

Bəs İrəvandakı son olayların təsiri də daxil, hazırda sülh prosesinin perspektivi necə görünür? Bu ay doğrudanmı, nəhayət, gözlənilən irəliləyişin şahidi ola biləcəyikmi, yoxsa müharibə ehtimalı avqustda da artmaqda davam edəcək? Rusiyalı tanınmış politoloq, Siyasi Tədqiqatlar İnstitutunun direktoru, prezident Vladimir Putinin danışmanlarından biri olan **Sergey Markov** Qarabağ münaqişəsinin həlli məsələsinin yekun sıçrayışa olduqca yaxın olduğunu və artıq bil il belə bir sıçrayışın reallaşa biləcəyoni, özü də "Kazan formulu" əsasında reallaşa biləcəyini deyib. Belədirmi?

**Aprel döyüşlərindən sonra aparılan sülh danışıqlarının mümkün nəticələrindən danışan politoloq Rasim Musabəyov ilk növbədə Azərbaycanın məzmunlu danışıqların aparılmasının tərəfdarı olduğunu xatırladır:** "İlk baxışda sanki məzmunlu danışıqlar başlayıb. Bununla belə, əvvəlki təcrübə dəfələrlə göstərib ki, belə məzmunlu danışıqlar əfsus ki, mühüm nəticələrə gətirib çıxarmayıb. Ümid eləmək istərdim ki, bu dəfə fərqli olacaq. Hər halda, mən baxıram ki, görünməmiş fəallıq müşahidə olunur, həm vasitəçilər, həm beynəlxalq təşkilatlar nizamlama prosesində irəliləyiş üçün aktivlik göstərir. Fikrimcə, müharibə eləməkdənsə, danışmaq və hansısa həll yolu axtarıb tapmaq daha yaxşıdır".

**Lakin nəticələr baxımından Musabəyov çox da optimist deyil:** "Təəssüf, mənim intuisiyam deyir ki, irəliləyiş olması üçün şanslar azdır, nəinki əksinə. Ancaq onu bilirəm ki, alternativlər elə də yaxşı deyil. Ola bilsin, bunun dərki (müharibə anlamında-red.) həm vasitəçiləri, hım də münaqişə tərəflərini, hər halda, irəliyə hansısa addım atmaq üçün sövq eləsin".

**Politoloq bu arada danışıqlar formatının dəyişdirilməsini, Minsk Qrupundan imtinanı mümkün saymır**: "Bu, həm real deyil, həm də gərəksizdir. İndi formatı dəyişmək üçün danışıqları saxlamaq, məzmunlu danışıqlardan prosedur danışıqlarına keçmək lazımdır. Mənim zənnimcə, formatı dəyişmək mənasız məşğuliyyət olardı. O ayrı məsələ ki, əgər həmsədrlər müstəqil şəkildə dinc nizamlamanı irəli aparmaq iqtidarında deyillərsə, o zaman bunu daha geniş əsasda etməyə cəhd eləmək gərəkdir. Hər halda, Minsk Qrupu təkcə həmsədrlərdən ibarət deyil. Yəni prosesə Avropa Birliyinin də potensialını cəlb eləmək olar. Həmçinin ATƏT sədri kimi Almaniya müəyyən təşəbbüslərlə çıxış edə bilər. Əgər biz konfliktin hansısa çərçivə anlaşmasını tapa bilmiriksə, onda beynəlxalq birlik Minsk konfransı qismində bu çərçivə şərtlərini elan edə bilər".

**Sülh prosesində Türkiyənin daha aktiv rol oynaya bilməsi, Ermənistanın isə buna mane olması haqda danışan ekspert deyib:** "Ermənistan mane olsa da, bu, situasiyanı dəyişmir, çünki Ankara onsuz da öz rolunu oynayır. Türkiyə bu məsələdə Ermənistanla danışmır, Rusiya ilə, Amerika ilə danışır. Lakin onun dördüncü həmsədr olması imkanı yoxdur. Mümkün deyil, bundan ötrü Ankara İrəvanla diplomatik əlaqələr qurmalıdır. Bütövlükdə məndən soruşsaydılar, deyərdim ki, qoy Türkiyə bizim tərəfdə olsun, nəinki "quyruğunu bulayan" *(neytral anlamda - red.)* vasitəçi" .

**Politoloq işğalçı Ermənistanda son məlum hadisələrdən sonra vəziyyətin necə inkişaf edə biləcəyi haqda da mülahizələrini bölüşüb. Qeyd edək ki, Serj Sərkisyan situasiyanın stabilləşdirilməsi üçün qarşıdakı bir neçə ayda milli barışıq hökumətinin qurulacağı haqda anons verib.**

"İndiki məqamda Ermənistanda milli barışıq hökumətinin qurulmasına xüsusilə Köçəryanın və digər müxaliflərin reaksiyası vacibdir. Ölkəsindən və əhalisindən istifadə edən Sərkisyan indi də milli barışıq hökumətinə getməklə hakimiyyətə nəzarətini itirməməyə çalışır. Əsas məqsəd budur. Çünki o, çox yaxşı bilir ki, prezidentlik müddəti bitir və ona görə də o, hökumətdə elə bir dəyişiklik etmək istəyir ki, prezidentlikdən uzaqlaşdıqdan sonra da azı yaxın müddətdə hakimiyyətə nəzarəti saxlaya bilsin" - politoloq vurğulayıb.

**Onun sözlərinə görə, hökumətdə dəyişikliklər etməklə yenidən prezidentlik postunu ələ keçirməyi planlaşdıran Sərkisyanın bu planının baş tutması çətindir:** "Hazırda Ermənistanda Sərkisyanın bu istəyi ilə razılaşmayan güclü oliqarxlar var. Xüsusilə milli barışıq hökumətinin qurulmasına Köçəryanın reaksiyası olduqca vacibdir. Hər şey bundan asılı olacaq. Sərkisyan Qarabağ danışıqlarının bu qədər intensivləşdiyi bir vaxtda məhz bu hadisələrdən yararlanmaqla güzəşt imkanlarının məhdud olduğunu dilə gətirəcək. Digər tərəfdən, hökumətdə müəyyən razılaşmaya gedən Sərkisyan üçün radikal qrupların öncədən təmizlənməsi vacib idi və o, bunu etdi".

*****

**"Bu gün regionda Qərb və Rusiya arasında bir nüfuz savaşı gedir. Dağlıq Qarabağ münaqişəsinin həllində Rusiya açar rolunu oynadığı üçün Moskva mütləq təşəbbüs göstərməlidir. Bunu isə politoloq Arzu Nağıyev axar.az-a açıqlamasında deyib. Ekspert deklorativ danışıqların artıq dalana dirəndiyini və konkret addımların atılmasının vaxtı çatdığına deyib.**

"Ortada Madrid prinsipləri, Kazan protokolları var. Məsələnin həllinin uzadılması bütövlükdə regionu təhlükəyə atmaq deməkdir. Artıq konkret addımlar atılmalıdır. Ermənistanda investisiyanın 95 faizinə nəzarət Rusiyanın əlindədir. Məhz Putinin İrəvana təsiri sayəsində Qarabağın tənzimlənməsi ilə bağlı ilkin addımlar atıla bilər. Həmçinin Moskva-Ankara yaxınlaşması isə prosesə müsbət töhfə verə bilər" - politoloq güman edir.




**Onun fikrincə, İran da Dağlıq Qarabağ məsələsinin həllində maraqlı olmalıdır:** "Azərbaycan, Rusiya və İran Avropadan Çinə yükdaşıma həyata keçirən bir dəhlizin yaradılmasında maraqlıdır. Dəhlizin ən əsas hissələrindən biri məhz Azərbaycandan keçir. Bunun üçün limanımız da hazırdır. Bütün bunlara baxmayaraq, Qarabağ məsələsinin həllində İran da maraqlı olmalıdır. Çünki regionda təhlükəsizlik məsələsi həyata keçməsə, qlobal məsələlərin həlli çətin olacaq. Bunun başında isə Dağlıq Qarabağ münaqişəsinin həlli durur. Azərbaycan bu gün diktə edən tərəfdir. Şərtimiz ərazi bütövlüyümüzün bərpası və rayonların boşaldılmasıdır. Yalnız bundan sonra status məsələsinə baxıla bilər. Sərkisyanın verdiyi sərsəm bəyanatlar status-kvonu saxlamağa və danışıqlardan yayınmağa hesablanmış siyasi gedişlərdir".

**Artıq hər an bağlanma təhlükəsi qarşısında olan banklar borclu müştərilərini məhkəməyə verirlər. Hüquqşünas Əkrəm Həsənov bildirib ki, bununla bağlı onun rəhbərlik etdiyi "Antikollektor"a müraciətlər var. Onun sözlərinə görə, "NBCBank" kredit borcunu ödəməyən müştərilərlə bağlı polisə müraciət edib. Bu barədə bizimyol.info-ya danışan ekspert qeyd edib ki, digər hüquqşünaslar da bu cür hallarla rastlaşdıqlarını bildirirlər.**

# Banklar müştərilərini polisə verir - kütləvi qorxutma...

## Ekspertlər bankların bu addımını qanunsuz hesab edirlər, çünki...




Qeyd edək ki, qanunvericilyə əsasən, mülki xarakterli müqavilələr üzrə müqavilə öhdəliyinin yerinə yetirilməməsi ilə bağlı yalnız mülki qaydada məhkəməyə müraciət edilməlidir. Bu halda, məhkəmə müvafiq qərar çıxarır və bu qərarın icrası məhkəmə icraçıları tərəfindən təmin olunur. Bütün hallarda, mülki xarakterli müqavilələrlə bağlı mübahisələndirmə müstəvisinə polisin heç bir aidiyyəti yoxdur.

**Əkrəm Həsənovun sözlərinə görə, bankın polis orqanına müraciətində müştərilərinin bankı aldadaraq, dələduzluq etdiyi göstərilir:** "Bu tipli ittihamla müraciət edilib. Bank həmin vətəndaşın dələduzluq etməsini haradan və necə müəyyən etdi? Ümumiyyətlə, vətəndaşın banka qarşı dələduzluq etməsi mümkün deyil. Dələduzluq odur ki, mən sizi aldadıram və pulunuzu əlinizdən alıram. Bankı isə bu formada aldatmaq mümkün deyil. Bank insan deyil ki, onu kimsə aldatsın. Çünki bank kredit verərkən hər bir halda müştərinin maliyyə vəziyyətinə baxır, yoxlayır və müəyyən təminat qarşılığında kredit ayırır. Bununla bağlı isə bankla müştəri arasında mülki müqavilə bağlanır. Tərəflərin biri öhdəliyi hər hansı səbəbdən yerinə yetirə bilmədikdə, bununla bağlı yalnız mülki qaydada iddia qaldırmaq olar".

**Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin şöbə rəisi Orxan Mansurzadə bizimyol.info saytının sorğusuna cavab olaraq bildirib ki, hələlik onlarda belə müraciətlərin olub-olmaması ilə bağlı məlumat yoxdur və araşdırıqdan sonra dəqiq məlumat veriləcək. "NBCBank"ın hüquqşünası Araz Nurməmmədov isə açıqlamasında məlumatı təkzib edib. O bildirib ki, krediti ödəyə bilməyən müştərilərlə bağlı polisə müraciət etmə halı yoxdur.** "Məlumatı yayan şəxs bunu nəyə əsasən deyir bilmirəm, amma bank müştərilərlə bağlı polisə müraciət etməyib",- deyə bank rəsmisi bildirib.

**Əkrəm Həsənov musavat.com-a məsələ ilə bağlı bildirib ki, bu halda bankların polisə müraciəti və polisin işə qarışması qanunsuzdur:** "Onların buna ixtiyarları yoxdur". Onun sözlərinə görə, artıq problemli kreditləri qayıtmayan əksər banklar bu yolla müştərilərə təzyiq edərək pullarını geri almağa çalışırlar: ""Antikollektor"a artıq bir neçə bu cür müraciət daxil olub. Digər banklar da polislə qorxutmadan istifadə edir. Bankla müştəri arasında bağlanan kredit müqaviləsi sırf mülki münasibətdir. Yəni bir şəxs digər şəxsə borcludur. Sabah onu qaytarmayanda belə, bank müştərini məhkəməyə verməlidir. Məhkəmə qərar versə ki, filankəs borcunu ödəməlidir, bundan sonra da müştəri qərəzli şəkildə ödəməzsə, demək, hansısa cinayət əməli, yaxud inzibati xəta var. Yəni məhkəmə qərarından sonra vətəndaş borcunu qərəzli şəkildə, pulu ola-ola ödəmirsə, bu, məsuliyyət yaradır. Amma müştərinin borcunu ödəməməyi hələ o anlama gəlmir ki, onun pulu ola-ola ödəmir. Bəlkə ümumiyyətlə müştəri heç borclu deyil? Bəlkə ümumiyyətlə müştəri hesab edir ki, bank ondan aldığından çox pul tələb edir? Borcu qaytarmamaq polisə müraciət üçün əsas deyil. Yəni polisə o adamı verirlər ki, cinayət edib. Amma hələ bu faktın özü yoxdur. Birbaşa polisə vermək və bunu kütləvi etmək qanunsuzdur. Belə xəbərlər gəlir ki, polisə verilən vətəndaşların xaricə çıxışına da qadağa qoyurlar. Qanunsuz olaraq bu yollardan istifadə edirlər. Polis vətəndaşı axtarışa verir, dərhal da ölkədən çıxışına qadağa qoyulur. Əsas məqsəd də budur. Vətəndaşlara polisdə deyirlər ki, əməlinizdə dələduzluq var. Dələduzluq da aldatma yolu ilə başqasının əmlakını ələ keçirməkdir. Yəni vətəndaşın banka qarşı dələduzluq etməsi ümumiyyətlə mümkün deyil. Çünki vətəndaşın yalnız o halda banka qarşı cinayət etdiyini deyə bilərik ki, bank bunu sübut etsin. Bank sübut etməlidir ki, vətəndaş banka saxta sənədlər verib. Bu halda da dələduzluğa görə yox, saxtakarlığa görə məsuliyyətə cəlb edilə bilər. Amma vətəndaş gəlib öz sənədlərini verib, bankın da qanunvericiliyə görə borcudur ki, onun gəlirini və sair məsələləri araşdırıb yoxlasın. Yəni vətəndaş bankı aldada bilməz, mümkün deyil. Bankın özünün aldanmaq fikri yoxdursa, vətəndaş bunu edə bilməz. Bəzən bank işçiləri özləri bəzi borcalanlarla əlbir olurlar, sənəd götürmədən kredit verirlər. Burada vətəndaşın yox, bankın məsuliyyəti var, sənədləri bank tələb etməlidir. Vətəndaş haradan bilsin ki, banka hansı sənədlər lazımdır? Amma bunu banklar ona görə edirlər ki, son vaxtlar "Antikollektor"un, digər hüquqşünasların bu sahədəki fəaliyyətindən narahatdırlar. Biz əhaliyə başa salmışıq ki, məhkəmələrdən qorxmasınlar. Məhkəmələrin uzanması belə bankın xeyrinə deyil, vətəndaşın xeyrinədir. Banklar başa düşürlər ki, məhkəmənin perspektivləri azalır, perspektiv yoxdur. Yəni illərlə məhkəmələrdə olacaqlar, banklara isə bu dəqiqə təcili pul lazımdır. Ona görə bu yollara əl atırlar ki, vətəndaşlara təzyiq etsinlər, qorxutsunlar. Amma polisin də bu işlərə qarışmağa ixtiyarı yoxdur. Bank sübut etsin ki, saxtakarlıq olub burada. Amma kütləvi halda saxtakarlığın olması da mümkün deyil, banklar sübut edə bilməyəcəklər".

❑ **Röya RƏFİYEVA**

# Dolların bahalaşmasında turist amili varmı?



**Ekspert:** "Azərbaycana gələn turistlərin sayı o qədər azdır ki, onların xərclədiyi valyuta heç nəyi həll etmir..."

**Azərbaycan turizmi artıq aparılan islahatlara pozitiv reaksiya verməkdədir. Bu il ölkəmizə gələn turistlərin sayı ötən illərə nisbətən artıb. Turist sayının artması isə ölkəyə daxil olan valyutanın həcminin artması deməkdir. Bəs görəsən, bu tendensiya manatın məzənnəsinə necə təsir edir? Ölkəyə daxil olan valyuta axını manatın məzənnəsinin möhkəmlənməsinə səbəb ola bilərmi? Və ya turistlər üçün sərfəli olsun deyə hökumət dolları bahalaşdıra bilərmi?**



"Yeni Müsavat"ın suallarını cavablandıran **iqtisadçı ekspert Natiq Cəfərli** bildirdi ki, iqtisadi məntiqlə düşünsək, ölkəyə nə qədər çox turist daxil olsa, bir o qədər çox valyuta ehtiyatı gəlir: "Hazırda ölkəyə gələn turistlərin böyük əksəriyyətinin Şərq ölkələrindən olduğunu nəzərə alsaq, deyə bilərik ki, yetərincə böyük məbləğdə dollarlar ölkəyə gətirilir. Təbii ki, dollarla gələn turistin burda pul xərcləməsi xarici valyutanın həcmini artırır, iqtisadi məntiqlə manata təzyiqləri azaltmalıdır. Azərbaycan hökuməti də belə bir ab-hava yaratmışdı ki, turistlərin çoxluğu mütləq milli valyutanı möhkəmləndəcək. Əslində iqtisadi məntiqlə də bu belədir. Ancaq reallıq heç də elə deyil. Çünki uzun illər dünyanın ən böyük turistik mərkəzlərindən olan, dünyada 5-ci yerdə olan Türkiyə ildə 30 milyona yaxın turist qəbul edirdi. O baxımdan, türk lirəsi ciddi şəkildə möhkəmlənməli idi. Halbuki lirə son 5 ildə iki dəfədən çox dəyər itirib. Artıq 3 lirə 1 dollar civarındadır. Yəni turizmin valyutaya elə də böyük təsiri yoxdur".

**N. Cəfərlinin sözlərinə görə, Azərbaycan hökumətinin məhz turistlərə görə manatın məzənnəsini aşağı salacağı ağlabatan deyil:** "Düşünmürəm hökumət dolları bahalaşdırar ki, qiymətlər onlara sərfəli olsun. Mən bu məntiqə də inanmıram. Azərbaycanın valyuta ehtiyatları kifayət qədər zəifdir, valyuta həddindən artıq azalıb. Gələn turistlərin sayı da kifayət qədər azdır. Ötən illərə nisbətən təbii ki, artım var. Lakin Azərbaycana gələn turistlərin sayı o qədər azdır ki, onların xərclədiyi valyuta heç nəyi həll etmir. Son rəsmi rəqəmlər də göstərir ki, məsələn, ərəb ölkələrindən gələn turistlərin sayı 30 dəfə artıb. Lakin bütövlükdə ilin əvvəlindən bu yana ölkəyə 28 min turist gəlib. Onların xərclədiyi valyutanın maksimum həddi 10 milyonlarla ölçülə bilər. Yəni ən ideal həddə ilin 6 ayına görə 20-30 milyon dollar valyuta gələ bilər. Bunu da ilə böləndə kifayət qədər kiçik bir məbləğ alınır. Bu baxımdan, manatın dəyərdən düşməsinin turistlərlə heç bir əlaqəsi yoxdur. Daha çox dünyada gedən proseslərlə, neftin ucuzlaşması, ölkənin valyuta ehtiyatlarının zəifləməsi, tədiyyə balansında çox ciddi problemlərin yaranması, bank sektorunda olan problemlərlə bağlıdır".

**Ekspert hesab edir ki, dünyada gedən proseslərə nəzərən manatın məzənnəsinin zəifləməsi davam edəcək:** "Hökumət isə turistdən yox, Mərkəzi Bankın və Neft Fondundan büdcəyə transfer olunan vəsaitdən udur. Transfer olunan vəsait manatla olduğundan hər dəfə manat ucuzlaşdıqca, Neft Fondunun vəsaitlərinə qənaət olunur. Əgər bir neçə ay öncə, Dövlət Neft Fondu ehtiyatdakı dollarları 1.50 məzənnə ilə manata çevirib büdcəyə transfer edirdisə, indi artıq 1.59-la çevirir. Bu baxımdan, təxminən 7-8 faiz xərclərinə qənaət edir. Bu təkcə turistlərlə əlaqəli deyil. Sadəcə, Neft Fondunun vəsaitlərinə az da olsa qənaət etməsidir".

**Turistlərin sayının artmasına da toxunan N. Cəfərli rəqəmlərin tam olaraq reallığı əks etdirmədiyini də vurğuladı:** "Gürcüstan ildə 5,5-6 milyon turist qəbul edir. Azərbaycanda isə bu rəqəm kifayət qədər aşağıdır. Rəsmi rəqəmlər də dəqiq deyil. Çünki bu rəqəmlərə görə, Azərbaycana ən çox turist Rusiya və Gürcüstandan gəlir. Bildiyiniz kimi, orada da çoxlu sayda Rusiya və Gürcüstan vətəndaşı olan soydaşlarımız var və onlar qohum-əqrəbalarının yanına gələndə də turist kimi qeydiyyatdan keçirlər. Biz digər ölkələrdəki kimi bir neçə milyon turist qəbul edə bilmirik ki, o zaman Azərbaycan turistlərdən qazanmağı düşünə bilərdi".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 171 (6492) 6 avqust 2016

**Bu günlərdə cəmiyyətdə ən çox müzakirə olunan mövzu heç şübhəsiz ki, anası tərəfindən qətlə yetirilən yeniyetmədir. 1981-ci il təvəllüdlü Züleyxa Cəfərova qızı, 2001-ci il təvəllüdlü Ehsanə Cəfərovanı boğaraq qətlə yetirib. Məlum olub ki, Cəfərova öz qızını (onun 3 uşağı var) hirsindən şərfla boğub. Qız anasına zorlandığını deyərək ondan kömək istəyib, ana isə əvəzində qəzəblənərək qızını öldürüb. Ana istintaqa bildirib ki, belə bir biabırçılığa dözə bilməyib, ona görə də cinayətə əl atıb. Hazırda rayon prokurorluğunda fakt üzrə araşdırma aparılır.**

# Biri zorlandığı üçün öldürür, o biri yatmağa qoymadığı üçün

## Azərbaycanlı qatil valideynlərin tükürpədici hekayələri...



Züleyxa Cəfərova ilə bağlı Cinayət Məcəlləsinin 120-ci maddəsi (qəsdən adam öldürmə) ilə cinayət işi açılıb.

Amma bu, Azərbaycanda, eləcə də onun qonşuluğunda baş verən ilk belə hadisə deyil. Valideynlər bu və ya digər səbəblərdən övladlarını qətlə yetirirlər. Bu, xüsusən də iqtisadi problemlərin girdabında boğulan ailələr üçün keçərlidir. Onlar buna bir növ intihar kimi baxırlar. Amma təbii ki, yeganə səbəb iqtisadi çətinlik deyil. Bəzilərini yada salaq.

### Spirtli içki, psixoloji problemlər; səbəblər müxtəlif, nəticə eynidir

2014-cü ildə spirtli içki atanı öz övladının qatilinə çevirib. Sərxoş ata 14 yaşlı oğlunu bıçaqlayaraq öldürüb. Hadisə Abşeron rayonunun Qobu qəsəbəsində baş verib. Eldəniz Məmmədov dostları ilə yeyib-içdikdən sonra axşam saatlarında evə gəlib. Evdə də içki qəbul etməyə davam edib. Həddən artıq sərxoş olaraq yatıb və bir neçə saatdan sonra uşaqların səsinə oyanıb. Əsəbi halda bıcağı əlinə alan ata həyətdə iplə oynayan oğlunun üstünə gedib...

14 yaşı İbrahim Məmmədov atasının əlindən qaçmağa çalışsa da, atası buna imkan verməyib və bıçaqlayaraq qətlə yetirib. Övlad qatili olmaqla kifayətlənməyən ata törətdiyi əməli ört-basdır etməyə də cəhd göstərib. O, həyat yoldaşı Simuzər Vahidovanı istintaqa belə bir ifadə verməyə məcbur edib ki, guya uşaq evin üstündən ipləri kəsərkən yıxılıb və əlindəki bıcağın ona batması nəticəsində ölüb.

Ancaq hüquq-mühafizə orqanlarının istintaq-əməliyyat tədbirləri nəticəsində 14 yaşlı İbrahim Məmmədovun öz doğma atası tərəfindən bıçaqlanaraq amansızlıqla qətlə yetirildiyi məlum olub...

2015-ci ildə Bakının Sabunçu rayonunda saat 20:30-da Albalı bağ massivində 27 yaşlı ana iki övladını öldürüb, özünə də intihar məqsədilə xəsarət yetirib. Belə ki, İkinci Albalı bağ massivi 515-ci bağ evində yaşayan 1988-ci il təvəllüdlü Nəsibə Nəsib qızı Quliyeva evdə tək olarkən iki körpə balasını boğub öldürüb. Qadın daha sonra öz ürəyinə bıçaqla zərbə yetirib. Hadisə barədə hüquq-mühafizə orqanlarının əməkdaşları məlumat tutan kimi ora gediblər. Qadın xəstəxanaya yerləşdirilib.

Məlum olub ki, o, 2012-ci il təvəllüdlü Ayan Asif qızı Məlikzadəni və 10 aylıq körpəsi Ayşəni boğazını kəsərək öldürüb. Daha sonra məktub yazaraq intihara cəhd edib.

Qadın məktubunda həyatından bezdiyini yazıb: **"Mən həyatdan bezmişəm. Belə yaşamaq istəmirəm. Mən şeytanın yolu ilə gedirəm. Uşaqları da özümdən sonra heç kimə əmanət etmirəm".**

2016-cı ilin aprelində Ağstafa rayon Qırlı kəndində 6 yaşlı Şəmsəddini taxta ilə döyərək öldürən şəxs 1979-cu il təvəllüdlü Pərvanəyev Famil Şəmistan oğlu martın 31-də axşam saatlarında polis əməkdaşları tərəfindən saxlanılıb.

Famil Pərvanəyev 6 yaşlı Şəmsəddini taxta ilə döyərək bədən xəsarətləri yetirib. Uşağın vəziyyəti ağırlaşdığından təcili tibbi yardım çağırılıb. Həkimlər gəldiyində isə artıq uşaq dünyasını dəyişibmiş.

Hadisə baş verən ev F.Pərvanəyevin qeyri-rəsmi nikahda olduğu ikinci xanımının ata evi olub. Onlar bayram ərəfəsində Qırlı kəndinə gəliblər. Bundan əvvəl isə Qazaxda, daha sonra isə Bakıda yaşayıblar.

Hadisə baş verdikdən sonra Famil Pərvanəyev evdən qaçmayıb. Təcili yardım çağırılanda uşağın öldüyü məlum olub. Hadisə yerinə polis əməkdaşları gəlib. Ağstafa Rayon Polis İdarəsinin rəisi və Ağstafa rayon prokuroru hadisə yerinə gəlib. İlkin araşdırma zamanı Famil Pərvanəyevin uşağı taxta ilə döydüyü məlum olub və o, saxlanılaraq polis idarəsinə aparılıb.

### Dünyanın qatil valideynləri - fransız 7 uşağını, erməni 1 uşağını əlləri ilə öldürüb

Amma yaxın qonşularımızda da belə hadisələr az olmayıb. Məsələn, iki il öncə Qazaxıstanın Şərqi Qazaxıstan vilayətinin Şemonaix şəhərinə mənzillərdən birində bir qadın və 3 uşağın meyiti tapılıb. Bu barədə regionun Daxili İşlər Departamentinin mətbuat xidməti məlumat yayıb.

Qadının 1981-ci il təvəllüdlü, uşaqların isə 2-10 yaş arasında olduqları deyilir.

İlkin məlumata əsasən, ana əvvəlcə uşaqlarını asıb, sonra intihar edib. Onun hadisəni törətməsinin səbəbləri məlum deyil.

Məlumata əsasən, qadının əri də hadisədən sonra özünü öldürməyə cəhd göstərib.

Ermənistanda ana yeni doğulan körpəsini öldürüb. Hadisə Şirak vilayətində baş verib. Belə ki, evdə təkbaşına oğlan uşağı dünyaya gətirən ana imkansızlıqdan övladını boğaraq öldürüb.

Qatil ana polislər tərəfindən saxlanılıb. Faktla bağlı araşdırma aparılır. Qadına məhkəmə tərəfindən vilayətin ərazisindən çıxmamaq barədə göstəriş verilib.

Rusiyanın Voronej şəhərində yaşayarımlıq qız uşağını öldürməkdə şübhəli bilinən bir şəxs tutulub. Körpənin meyiti ağır döyülmə izləri ilə uşağın anasının yaşadığı mənzildə tapılıb. **"İlkin istintaqa görə, körpə hündürdən ağladığı üçün ögey ata onu bərk döyüb. Alınan zədələrdən körpə keçinib"**, - deyə təhqiqat komitəsinin Voronejin Levoberejniy rayonu üzrə rəhbəri Matvey Sladkix bildirib.

Fransanın Ot-Reyn departamentinin Miluz şəhəri yaxınlığındakı Şlerbax yaşayış qəsəbəsində baş verən ailə dramı hamını şoka salıb.

Valideynlər arasında yaranan mübahisə faciəyə səbəb olub. Ana beş uşağını amansızlıqla qətlə yetirib. Həyat yoldaşının ailəni tez-tez tərk etməsindən qəzəblənən qatil ana üç azyaşlı və iki yeniyetmə uşağına saysız-hesabsız bıçaq zərbələri endirərək onların həyatına son qoyub.

Hadisə yerinə gələn polis işçiləri gördükləri mənzərədən dəhşətə gəliblər. Qonşular bu ailədə tez-tez mübahisələrin şahidi olduqlarını bildiriblər...

Psixoloqlar isə hesab edirlər ki, uşaq qatilləri təkcə sosial problemlərin arxasında gizlənib belə əməllər etmirlər. Onların böyük əksəriyyətinin ciddi psixoloji problemləri olur. Bunun qəfil üzə çıxması anında yanlarında azyaşlı və köməksiz körpələri olursa, zərərçəkən də onlar olur. Amma dünyanın bütün ölkələrində azyaşlı övlad qatilləri ömürlük həbs cəzası və ya ağır həbs cəzasına məhkum olunurlar.

❑ **Sevinc TELMANQIZI**

# Həyati əhəmiyyətli mərclər



**Samir SARI**

**Gəncliyimizdə tay-tuşlarımızla eyzən höcətləşər, tez-tez mərcləşərdik. Öz dediyimizin doğru olduğunu, opponentin yanlışlığını sübut etmək, maddi ziyan hesabına ona öz səhvini göstərmək üçün ən yaxşı yol mərc idi. Həm də uduşu vardı. Təbii ki, yanılma halında uduzmaq da vardı işin içində.**

Açığı, mən o vaxt qoşulduğum mərclərin çoxunu udurdum. Çünki əmin olmadan mərc lotunda tərəf-müqabil olmazdım.

Bir dəfə yataqxanada bir otaqda qaldığımız Aslanla küçədə gedirdik. Aslan hind filmindən "Xotuba" mahnısını zümzümə edirdi. Birdən o dedi ki, qız şəlalənin altında bu mahnıya çox qəşəng oynayır, dedim, hə, düzdür, Zinət Amandır. Aslan dedi, nə Zinət Aman, "Xotuba"nı oynayan Xema Malinidir. Mən dedim, o dedi, axırda bir sovet şampanından mərcləşdik.

O vaxt indiki kimi dedyildi, Youtube və ya Google saytında "Xotuba" yazıb axtarış verəsən, şəlalənin altında erotik-erotik oynayan qızın videosu, şəkilləri, filmin titrləri ekrana gələ, sən də deyəsən, bax, budur, uddum səni.

"Xotuba"nı oynayan qızın hansı artist olmasını təkzibedilməz şəkildə sübut etmək iki-üç gün vaxtımızı aldı. Axtardıq, şəhərin hansısa kiçik bir kinoteatrında həmin filmin hələ də nümayiş etdirildiyi öyrəndik, vardıq, getdik. Film başladı, titrlərdə "Zinət Aman" adı görən kimi Aslanı dümsüklədim ki, dur gedək, sən uduzdun. O, uduzduğunu etiraf etdi, ancaq dirəndi ki, yox, heç olmasa şəlalədə oynadığı yerə qədər baxaq, Allah adamın üstünə od tökər, pis oynamır. Baxdıq, çıxdıq. Aslan "sonra alaram" deyə şampan şərabını almaqdan imtina etmək istəsə də, xeyri olmadı, zəhləsini tökdüm, aldırdım.

Ondan sonra o, hələm-hələm mənimlə höcətləşmir, mərcləşmirdi, deyirdi, uşaqlar, əgər bu kiminləsə mərcləşirsə, demək, bir bildiyi var.

Bu məzəli əhvalat yadıma o gün Sumqayıtda yaşayan, "Sədərək" bazarında işləyən fəhlənin mərcləşərək universitetə daxil olmaq şansı qazanması xəbərini oxuyanda düşdü. Heç demə, belə mərclər də olurmuş. Adam mərc qoşub və test imtahanında 532 bal toplayıb.

Bunun bir adı özünəinamın qələbəsidirsə, bir adı da höcətliyin təntənəsidir.

Təbii ki, orta məktəbi yaxşı qiymətlərlə bitirmiş, İqtisad Universitetindən məzun olmuş, bank sektorunda işləmiş bir gənc üçün yenidən imtahan vermək çətin deyildi. Nə qədər olmasa da, onun vaxtilə beyninə yığdığı biliyin 60-70 faizi yaddaşında qalmış olacaqdı. Bu üzdən ona, taleyin vurub ali təhsilli fəhlə etdiyi gəncə yox, onunla mərc qoşan adama təəccüb etmək gərəkdir ki, o, nədən rəqibinin bal toplaya bilməyəcəyini güman edib.

Belə bir istedadlı gənc, şübhəsiz ki, qısa müddət hazırlaşmaqla yenidən istədiyi universitetə daxil ola bilər. Adam hazır mütəxəssisdir, hansı sahədə işləsə, uğurlu ola bilər. Yəni ona bu gün vergi sistemində, gömrükdə, bank sektorunda bir iş düzəltmək olar və o qısa müddətdən sonra yüksək hazırlıqlı mütəxəssisə çevriləcək. O gəncdə baş var, amma o, bunu məcburən qarpıza işlədir. Rəvamıdır ki, bu cür savadlı gənc yük daşısın, fəhləlik, hamballıq eləsin.

Bu, bəlkə də onun həyatının mərci olub. Həmin mərclə o, təkcə, 100 manat qazanmayıb, yəqin ki, bir həssas iş və ya vəzifə adamı ortaya çıxıb İbrahim adlı o gəncin həyatını dəyişdirəcək.

Mərc qoşmağa gəlincə, bu da qumarın bir növüdür, udursan, uduzursan. Burda da bəxt amili öz rolunu oynayır. Deyirlər, sovet vaxtı bir özünə güvənən kişi dostu ilə söhbət zamanı dövrün ən məşhur gözəl qadınına girişə, hətta onunla evlənə biləcəyini deyib. Dostu inanmayıb, höcətləşiblər, axırda mərcləşiblər. Nəticədə həmin şəxs gedib o qadınla ailə qurub və sona qədər də birgə yaşayıblar.

Bu, bəlkə də xalq yaradıcılığı rubrikasındandır, dəqiq bilmirəm, amma onu dəqiq bilirəm ki, bəzi mərclərdə qazanılan qələbə insanın həyatının ən böyük qələbəsi ola bilər.

Bizim mərc qələbələrimiz şampan şərabıyla, xudmani qonaqlıqlarla, şokolad qutusu ilə məhdudlaşırdı. Amma 1992-ci ilin axırlarında YAP-ın tezliklə hakimiyyətə gələcəyini deyən bir adamla mərcləşdik (özü də heç nədən), 1993-ün yayında YAP hakimiyyətə gəldi, uduzdum.

Bir də 1991-ci ildə Hacı adlı kəndçimlə Qarabağın işğaldan azad olunmasına dair mərcimiz vardı, mən deyirdim, bir-iki ilə bu məsələ həll olacaq, o deyirdi, heç 20 ilə də həll olmayacaq. 2011-də o mərci də uduzmuşam.

İndi siz mənim udduğum mərclərə baxın, uduzduqlarıma baxın.

YENİ MÜSAVAT
N 171 (6492) 6 avqust 2016

# Bakıda sahibkarlar arasında kütləvi dava






**«Trend»in məlumatına görə, hadisə paytaxtın Xəzər rayonunun Mərdəkan-Qala avtomobil yolunun şərq hissəsində, "Qalabazar" istirahət mərkəzinin yaxınlığında baş verib.**

Hadisə ərazidəki torpaq dava üstündə olub. Məlumata görə, "Qalabazar" istirahət mərkəzinin sahibləri ilə yaxınlıqdakı torpaq sahəsinin sahibkarı arasında mübahisə yaranıb. Mübahisə dava ilə nəticələnib. "Qalabazar" istirahət mərkəzi rəhbərinin adamları sahibkara məxsus torpaq sahəsində tikinti aparan şəxslərə hücum edib və onları döyüblər. Hadisə zamanı əraziyə gələn, "Qalabazar" istirahət mərkəzinin sahiblərindən biri Mehdi adlı şəxs şəxsi avtomobili ilə Bakı şəhər sakinləri - Zamanov Aftandil Məhərrəm oğlu, Kərimov Ələddin Qafar oğlu və torpaq sahəsinin sahibinin nümayəndəsi Rüfət Vəliyevi vurub.

Hadisə yerinə Xəzər Rayon Polis İdarəsinin əməkdaşları cəlb olunub. Yaralılara təcili tibbi yardım briqadası tərəfindən ilk tibbi yardım göstərilib və xəsarət alanlardan iki nəfər xəstəxanaya yerləşdirilib.

Faktla bağlı Xəzər Rayon Polis İdarəsinin 1-ci polis bölməsində araşdırma aparılır.

Xəzər Rayon Polis İdarəsindən «Trend»ə faktı təsdiqləsələr də, hadisə ilə bağlı əlavə məlumat verilməyib.

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Kürdəmirdə bir ailə qəzaya düşdü; sürücünün xanımı öldü

**Kürdəmir rayonunda ölümlə nəticələnən ağır yol-nəqliyyat hadisəsi baş verib. APA-nın yerli bürosunun xəbərinə görə, hadisə dünən günorta saatlarında Bakı-Qazax əsas magistral yolunun 196-cı kilometrliyinin Kürdəmir rayonundan keçən hissəsində qeydə alınıb.**

Bakı şəhər sakini Əli Əsəd oğlu Əkbərovun idarə etdiyi "KİA" markalı minik maşını ilə Kürdəmir rayonunun Şilyan kənd sakini Səftər Heydər oğlu Məmmədovun idarə etdiyi "VAZ 2107" markalı minik maşını toqquşub. Nəticədə hər iki sürücü və "KİA" markalı minik maşınının sərnişinləri - sürücünün həyat yoldaşı, Leyla Yunus qızı Salahova, onların 2 aylıq övladları Yunus Əli oğlu Əkbərov və sürücünün qayınatası Yunus Əsgərxan oğlu Salahov ağır bədən xəsarətləri alıblar.

Xəsarət alanlar təcili olaraq Kürdəmir Mərkəzi Rayon Xəstəxanasının Travmatologiya şöbəsinə yerləşdiriliblər. Həkimlərin səylərinə baxmayaraq 33 yaşlı L. Salahova xəstəxanada dünyasını dəyişib.

"VAZ" markalı minik avtomobilinin sürücüsü müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

Faktla bağlı Baş Dövlət Yol Polisinin İstintaq və Təhqiqat şöbəsində araşdırma aparılır.



## Övladını qonşuya verib qaçan qadın üzə çıxdı

**Övladını 4 aydır qonşulara verərək geri dönməyən qadın, nəhayət, dünən üzə çıxıb. O, Sabunçu Rayon Polis İdarəsinə gələrək övladını atmadığını və 4 ayın elə də uzun müddət olmadığını deyib.**

Xəzərxəbər xəbər verir ki, qadın uşağını atmadığını və Qənirə İsmayılovanın onun övladına dayəlik etdiyini deyib. Bunun qarşılığında isə ona hər ay 150 manat pul ödəyib.

O, həmçinin azyaşlının əsl adının Kənan İsgəndərov olduğunu deyib. Özünü təqdim etməyən qadın uşağın ona məxsus olduğunu təsdiqləyən hər hansı bir sənəd də təqdim etməyib.

Bu arada, azyaşlı dünən Sabunçu Rayon İcra Hakimiyyəti və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin iştirakı ilə Bakı şəhər 1 saylı Körpələr Evinə aparılıb. Orda müayinə edilən körpənin sağlam olduğu və səhhətində heç bir problem olmadığı müəyyən edilib.

Sabunçu Rayon Polis İdarəsindən isə bildirilib ki, uşağın həmin qadının övladı olması barədə sənəd təqdim edildikdən sonra azyaşlı ona təhvil veriləcək.

## Övladını boğub öldürən ananın iddiası yalan çıxdı

### Qətlə yetirilən 14 yaşlı qız zorlanmayıbmış...

**Bakıda baş verən dəhşətli qətlin bəzi təfərrüatları məlum olub. 14 yaşlı qızın anası tərəfindən öldürülməsinin ilkin səbəbi olaraq ailədaxili münaqişə göstərilir.**

Musavat.com-un ailəyə yaxın mənbələrdən əldə etdiyi məlumata görə, ana ilə qızı arasında münasibətlər yaxşı olmayıb. Həmçinin qadının psixoloji problemləri də olub. Qonşuların ifadələrinə görə, tərəflər arasında tez-tez mübahisələr və dava-dalaş olub.

Sonuncu - avqustun 3-də baş verən mübahisə isə dəhşətli qətllə nəticələnib. Hadisə ailənin yaşadığı Sabunçu rayonu, Balaxanı qəsəbəsində baş verib. Həmin gün Züleyxa Cəfərova evində münaqişə zəminində 14 yaşlı qızı Ehsanə Cəfərovanı boğaraq öldürüb. Z.Cəfərova qızını öz yaylığı ilə boğaraq öldürüb. Bu zaman mənzildə ana və qızından başqa heç kim olmayıb.

Qonşuların dediyinə görə, hadisə baş verən gün yenə də ana ilə qızı arasında mübahisə olub. Evdən gələn səs-küy və qışqırıq səslərinin artıq normal hal aldığını deyən qonşular qətl hadisəsi xəbərini Z.Cəfərovadan aldıqlarını deyirlər. Belə ki, qızını öz yaylığı ilə boğan ana onun öldüyünü görüb qışqırmağa başlayıb və həyətə çıxıb. Səsə yığışan qonşular daha sonra polisə xəbər veriblər.

Hadisə yerinə Sabunçu Rayon Polis İdarəsinin 12-ci polis bölməsinin əməkdaşları gəlib. Qətli elə hadisə yerindəcə etiraf edən ana polis bölməsinə aparılıb.

Z.Cəfərovanın qonşularla yaxın münasibətləri olmadığından onun barəsində geniş bilgiyə sahib olanlar yoxdur. Z.Cəfərovanın daha iki- bir qız və bir oğlan övladları olduğu bildirilir. Hadisəni törədən ananın bir müddət əvvəl Masallıdan Bakıya gəldiyi deyilir.

Hadisənin başvermə səbəbi olaraq bəzi mətbuat orqanlarında 14 yaşlı qızın zorlanması göstərilir. Həmin məlumatlarda iddia edilir ki, 14 yaşlı qız zorlanması barədə anası ilə danışaraq ondan kömək istəyib. Lakin anası bunu eşitdikdən sonra onu boğaraq qətlə yetirib.

Ancaq Sabunçu Rayon Porkurorluğu bu iddianı təkzib edir. Prokurorluq hadisənin qızın zorlanması səbəbindən baş verməsi ilə bağlı yayılan məlumatların tam əsassız olduğunu deyərək, qətlin səbəbi kimi ana və qız arasında yaşanan mübahisəni göstərir.

Məlumatlı mənbənin musavat.com-a verdiyi məlumata görə, 14 yaşlı qızın zorlandığına görə anası tərəfindən öldürülməsi xəbərləri yayılandan sonra ekspertiza təyin olunub. Və bu zaman qızın zorlanmadığı məlum olub.

Hazırda Sabunçu Rayon Prokurorluğunda fakt üzrə araşdırma aparılır. Cinayət Məcəlləsinin 120-ci maddəsi (qəsdən adam öldürmə) ilə cinayət işi açılıb.

YENİ MÜSAVAT
N 171 (6492) 6 avqust 2016

# Ərəblər niyə sevilmir?

**Son aylarda Azərbaycana ərəb turistləri kütləvi şəkildə axın edir. Məlumatlara görə, təkcə iyul ayında ölkəmizə 70 mindən çox ərəb gəlib. Onların bəziləri Səudiyyə Ərəbistanı, Küveyt, Qətər, Fas, Əl-Cəzirə və digər ölkələrdən gələn ərəblərdir. Əlbəttə ki, ekspertlərin də qeyd etdiyi kimi, onların ölkəmizə gəlişi yerli iqtisadiyyat və turizmin inkişafı üçün dəyərli və sevindirici haldır.**

Lakin onların gəlişini isti qarşılamayan, bunu təhlükə hesab edən, paytaxtda iki addımdan bir qara çadralı qadınlarla qarşılaşmaqdan narahat olanların da sayı kifayət qədər çoxdur. Və bu fakt təkcə ölkəmizə aid deyil, ümumən dünyanın demək olar ki, bütün ölkələrində ərəblərin gəlişindən vətəndaşlar narahat olurlar. Avropa ölkələrində miqrant ərəblərin kütləvi şəkildə deportasiya ediləcəyi barədə məlumatlar yer almaqdadır.

Bəs görəsən, ərəblər niyə sevilmir? Səbəb nədir - bu, onların geyimi, xarici görünüşü, yoxsa son illərdə ölkələri sarsıdan neqativ olaylarda ərəblərin adlarının hallanması və yaxud ərəb inqilabları, həmin prosesdə baş verənlərlə bağlı informasiyalar insanları onlara qarşı bu cür yükləyir?

**Mövzuya aydınlıq gətirmək üçün sosioloq Əhməd Qəşəmoğlunun fikirlərini öyrənməyə çalışdıq. Sosioloq qeyd etdi ki, ərəblərin indiki halda ölkəmizə axını təhlükəli deyil:** “Ərəblərin sevilməməsi ilə bağlı müxtəlif faktlar var. Əvvəla, son 10 illiklərdə, xüsusən də 90-cı illərdən sonra sivilizasiyaların toqquşması Qərbdə İslama, müsəlman aləminə qarşı müəyyən gizli təbliğat getməkdədir. Ərəblər də bu baxımdan daha gözə çarpandır. Məsələn, biz bəzən öz geyimimiz, kostyumumuzla bilinmirik kimik, amma ərəblər dərhal bilinir, bu məsələnin bir tərəfidir. Artıq bizim Qərbdə olan gənclərimiz də sağ-solda tez-tez müsəlmanlar, ərəblər haqqında neqativ fikirlər eşidirlər. Sovet dövründə Moskvada ”türk-tatar" sözü indi bizdə səslənən ərəb sözü kimi idi. Bəzi dünyagörüşü zəif olan tələbələrimiz də “türk-tatar” sözünə soyuq baxırdılar, başa düşmürdülər ki, özləri də türkdürlər.

## **Əhməd Qəşəmoğlu:** “Biz gələn turistlərə qarşı mədəni davranmalıyıq”



Son vaxtlar ərəblərin Avropaya güclü axını, miqrasiyası insanları qorxudur, bu da təbiidir. Əgər bizə də Türkiyədə olduğu qədər miqrant, qaçqın gəlsə, müəyyən problemlər yarada bilər. Həmişə qaçqın və köçkünlərə, miqrantlara, tələsik gələnlərə qarşı bir kompleks olur. Son vaxtlar Qərb aləmində tez-tez baş verən terror hadisələrinin arxasında müsəlman familiyasının olması da ümumən ərəbə qarşı münasibəti dəyişir.

Amma indiki vaxtda Azərbaycana gələn ərəblərin sayı qorxulu deyil, əksinə, turizmin inkişafı baxımından fayda verir. Biz gələn turistlərə qarşı mədəni davranmalıyıq. Əgər istəyiriksə ki, ölkəmiz turizmdən də gəlir əldə edə bilsin, turistə qarşı mədəniyyət formalaşdırmalıyıq".

❑ **Xalidə GƏRAY**

# Bələdiyyə sədrini və ərini qətlə yetirən şəxsin məhkəməsi davam edir

## Prosesdə qadın bələdiyyə sədrinin torpaq satdığı şəxslər ifadə verdi: “56 min vermişdim...”

**Bakı Ağır Cinayətlər Məhkəməsində Saray qəsəbəsi bələdiyyəsinin sədri Vəsilə Əbilhəsənovanı və onun həyat yoldaşı Vəfadar Əbilhəsənovu öldürməkdə təqsirləndirilən Fədai Hüseynovun cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.**



Musavat.com-un məlumatına görə, hakim Fikrət Qəribovun sədrliyi ilə keçirilən prosesdə qətlə yetirilən bələdiyyə sədrinin müavini və bir neçə şəxs ifadə verib.

Məhkəmə prosesində ilk ifadə verən Vəsilə Əbilhəsənovanın müavini olmuş Məhi Həsənov olub. O, ifadəsində qətl hadisəsini törədən Fədai Hüseynovu tanıdığını deyib.

F.Hüseynovu mülayim biri kimi tanıdığını deyən M.Həsənov təqsirləndirilən şəxsin V.Əbilhəsənovanın sürücüsü olduğunu da deyib. O, hadisədən xəbər tutandan sonra xanım sədrin mənzilinə getdiyini bildirib.

Qeyd edək ki, M.Həsənov indi də Saray bələdiyyəsinin sədr müavini olaraq çalışır.

Digər ifadə verən şəxs də Saray bələdiyyəsinin işçisi olub. Bələdiyyədə sürücü işləyən Elşad Əhmədov ifadəsində qətli törədən Fədaini işə gəlib-gedərkən gördüyünü deyib. Onun haqqında əlavə məlumatı olmadığını deyən E.Əhmədov geniş ifadə vermək istəməyib və Fədai haqda olan məlumatının bundan ibarət olduğunu söyləyib.

Növbəti ifadə verən şəxslər isə qətlə yetirilən bələdiyyə sədrindən torpaq sahəsi almaq üçün ona pul verən şəxslər olub.

Elmin Əliyev adlı şəxs ifadəsində öldürülən bələdiyyə sədrinə ümumilikdə 20 min manat pul verdiyini deyib. Təqsirləndirilən şəxsin dostu olan Elmin Əliyev ayrı-ayrılıqda 2 sot torpaq almaq üçün cəmi 20 min manat V.Əbilhəsənovaya pul verdiyini, lakin torpaq ala bilmədiyini söyləyib.

**“Pulu şəxsən Vəsilə xanımın özünə vermişəm. Onu da Fədainin vasitəsilə tanımışam. Mənə heç bir sənəd verilmədi. Amma özünün kitabçası var idi. Pulu alandan sonra oraya qeyd elədi”** - deyə E.Əliyev ifadəsində söyləyib.

Mərhum bələdiyyə sədrindən torpaq alanlardan biri də Salman Məmmədov olub. O da məhkəmə zalında ifadə verib. Özünə və qohumlarına torpaq almaq məqsədilə Vəsilə Əbilhəsənova ilə görüşən S.Məmmədov ümumilikdə 98 sot torpaq almaq fikrinin olduğunu söyləyib: **“Özüm üçün aldığım torpağa görə təkcə 56 min manat nağd pul vermişəm. Nə torpağı verdilər, nə də pulum qaytarıldı”.**

Qeyd edək ki, sonuncu məhkəmə prosesində öldürülən bələdiyyə sədrinin 10 yaşlı qızı da ifadə verib. O demişdi ki, Fədai Hüseynov onlara gəlib-gedirmiş. Hadisənin necə baş verdiyini danışan 10 yaşlı Fidan bunları bildirmişdi: **“Mən otaqda uzanmışdım, anama zənglər gəlirdi. Amma o açmırdı. Sonra nənəm gəldi otağa, anam dedi ki, sən çıx hava al. Özü telefonunda nəsə yazdı. Birdən Fədai əmi otağa girdi. Anam dedi ki, uşağın yanında olmaz. Sonra mənə dedi ki, ”Fidan, çıx çölə". Mən otaqdan zala çıxanda gördüm, nənəm yıxılıb. Nənəmi qaldıranda Fədai əmi atama yaxınlaşdı, “qardaş” deyib sonra bıçağı atama vurdu. Sonra anamın yanına getdim. Mən otağa qaçdım, anama dedim ki, atamı bıçaqladılar. Həmin vaxt anam əlini boğazından çəkdi, yerə yıxıldı, hər yer qan idi".**

Qeyd edək ki, ötən il iyunun 8-də Saray bələdiyyəsinin sədri Vəsilə Əbilhəsənova və həyat yoldaşı Vəfadar Əbilhəsənov amansızlıqla qətlə yetirilib.

Gecə saatlarında bələdiyyə sədrinin evinə gələn Fədai Hüseynov uşaqlarının gözü qarşısında bələdiyyə sədrinin başını kəsib, ərini isə odlu silahla ürəyindən vuraraq, qətlə yetirib. Hadisənin şəxsi münaqişə zamanı qeydə alındığı, mübahisənin isə torpaq üstündə olduğu bildirilib.

35 yaşlı Fədai Hüseynov Vəsilə Əbilhəsənovanın sürücüsü olub.

**Məhkəmə prosesi avqustun 16-da davam etdiriləcək.**

❑ **İ.MURADOV**



# “Atletlər kəndi”ndəki qəzanın araşdırılması təxirə salındı

**Bakı Ağır Cinayətlər Məhkəməsində I Avropa Oyunlarının keçirildiyi “Atletlər kəndi”nin nəqliyyat deposunda Avstriya yığmasının atletlərini avtobusla vurmaqda təqsirləndirilən avtobus sürücüsü Vəli Əhmədov, Nəqliyyat Nazirliyinin (NN) Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin şöbə rəisi Hüseyn Salamov, “Təhlükəsiz şəhər” kamerasının operatoru Elçin Həsənov və NN-in Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin Sərnişindaşıma Departamentinin məsləhətçisi Fərid Əmiraslanovun cinayət işi üzrə məhkəmə prosesi təxirə salınıb.**

Buna səbəb sürücü Vəli Əhmədovun vəkilinin iclasda iştirak etməməsi olub. Hakim Cavid Hüseynov prosesin avqustun 11-nə kimi təxirə salınması haqda qərar qəbul edib.

Qeyd edək ki, 2015-ci il iyunun 11-də, I Avropa Oyunlarının “Atletlər kəndi”nin nəqliyyat deposunda, “Bakubus” MMC-yə məxsus avtobus hərəkət zolağından çıxaraq piyadalar üçün səki ilə gedən Avstriyanın sinxron üzgüçülük üzrə yığma komandasının üzvləri Vanessa Sahinoviçə və Luna Paceri vurub. Yol-nəqliyyat hadisəsində sürücü Vəli Əhmədov, Nəqliyyat Nazirliyinin (NN) Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin şöbə rəisi Hüseyn Salamov, “Təhlükəsiz şəhər” kamerasının operatoru Elçin Həsənov və NN-in Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin Sərnişindaşıma Departamentinin məsləhətçisi Fərid Əmiraslanov təqsirləndirilir. V.Əhmədova qarşı Cinayət Məcəlləsinin 263.1-ci (yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma, avtomobil, tramvay və ya digər mexaniki nəqliyyat vasitəsini idarə edən şəxs tərəfindən yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasına səbəb olduqda), H.Salmanov və E.Həsənova qarşı 308-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə), F.Əmiraslanova qarşı isə 314-cü (səhlənkarlıq) maddəsi ilə ittiham irəli sürülüb. Digərlərindən fərqli olaraq, F.Əmiraslanov barəsində həbs-qətimkan tədbiri seçilməyib. O, zaminə buraxılıb.

❑ **E.HÜSEYNOV**

YENİ MÜSAVAT

Son səhifə

N 171 (6492) 6 avqust 2016



## Kişi saçını qısa kəsdirirsə...

**Kişilərin xasiyyətini həm də onların saç düzümü ələ verir. Psixoloqlar deyir ki, saçlarını həmişə qısa kəsdirən kişilər nəfsinə qalib gəlməyi bacarır. Xaraktercə qüdrətlidirlər. İncəsənətdən səthi zövq alırlar. Əylənceni və rəqs etməyi isə çox sevirlər. Bəzən inadkar olurlar.**

Uzun saç düzümünə sahib olan kişilər isə sənət vurğunudur. Onlar hər hansı sənət sahəsində özlərini bacarıqlı sayırlar. Saçları qabarmadığı halda saç kremindən çox istifadə edən kişilər qərarsız olurlar. Onlara güvənmək olmaz. Ətrafında səmimi dostları çox az olur.

Saçlarını parıldadıb başına yapışdıran kişi başqalarına güvənir və öz şirin canını çətinliyə salmaqdan qorxur. Saçını yandan ayıran kişi təmkinli və qüdrətlidir. Xarakteri sabitdir. Macərasız, dalğasız, fırtınasız, sakit bir həyat sürür. Həyatı yalnız özünün çəkdiyi dar çərçivələrlə məhdudlaşır. Mülayim, mehriban və dözümlü olduğu üçün tanışları onu çox sevir.

Saçını ortadan ayıran kişi sırf yenilik olsun deyə hər işə qatlaşır. Elə buna görə də başı həmişə qalmaqaldadır. Yaxınları onu bu vərdişdən nə qədər yayındırmağa çalışsa da bacarmırlar. Saçlarını heç ayırmadan arxaya darayan kişi enerjili olur. Zahiri görkəminə o qədər də diqqət yetirmir. Qüvvətli şəxsiyyətdir. Qətiyyən başqalarının təsiri altına düşmür. Kitab oxumağı və incəsənətlə məşğul olmağı çox sevir. Hər zaman məşğul olduğu üçün başqalarına da çox vaxt ayıra bilmir.

# 99 il həbs cəzası alan ana

**ABŞ-da 2 yaşlı qızını su qabı ilə vuraraq komaya salan və əllərini güclü yapışqanla divara yapışdıran ana layiq olduğu cəzanı alıb. Uşağına işgəncə verən ana düz 99 il həbs cəzasına məhkum edilib.**



Dallasda yaşayan 23 yaşlı Elizabet Eskalonanın digər uşaqları bildirib ki, anaları balaca bacılarını ayaqyoluna sərbəst gedə bilmədiyi üçün döyüb. Ağır zərbələrə məruz qalan və ciddi yaralanan Cocelyn adlı körpə 4 bacı-qardaşı ilə birgə nənələrinə əmanət edilib.

## Onlar qoxunu hiss etmirlər



**Psixopatların qoxu alma duyğusunun zəif ola biləcəyi təsdiqlənib. Avstraliyanın Macquarie Universitetinin psixologiya fakültəsindən Mehmet Mahmut bu nəticəyə gəlmək üçün psixopatik reaksiyalar verən, 19-21 yaşında adı cinayətə qarışmamış 79 nəfərin qoxu alma qabiliyyətini araşdırıb.**

Portağal, qəhvə və dəri iyi verən 16 çubuğu iyləmiş bu adamların qoxuları düzgün şəkildə qavramadığı üzə çıxıb. "Chemosensory Perception" jurnalında yayımlanan araşdırmanı imzalayan alimlər bildirib ki, beynin iy almağa nəzarət edən bölümü psixopatik reaksiyalar göstərən şəxslərdə daha az təsirlidir. Amma alimlər deyir ki, qoxu alma qabiliyyəti zəif olan hər adamı psixopat adlandırmaq olmaz.

## 10 il sonra hamilə qaldığı üçün... hər gün qarnını boyayır

**Çində 34 yaşlı bir qadın 10 illik evlilik həyatından sonra nəhayət ki, hamilə qalıb. Uzun sürən tibbi müdaxilə və müalicədən sonra ana olmağa yaxınlaşan qadın 4 ay sonra qız övladını dünyaya gətirəcək.**



Qadın bu sevincli gözləntini qəribə bir üsulla rəngləndirməyə çalışır. Belə ki, hər gün qarnını zərərsiz boyalarla rəngləndirir. Bir gün qarnına günəş, o biri gün yaşıllıq şəkli çəkdirir. Özü də qadının qarnı üzərində rəssamlığı biri həyat yoldaşı olmaqla, iki nəfər edir. Çinli qadın Mao Run deyib ki, bununla da bətnindəki qızının dünyaya göz açmadan rəngləri tanımasını və daha müsbət enerji ilə doğulmasını istəyir.



## Oğlanlar yox, qızlar daha utancaq imiş

**Amerikalı alimlər müəyyənləşdirib ki, çox vaxt qızlar oğlanlara nisbətən daha utancaq olurlar. Bu, onların 8 aylıqda tanımadıqları insanlardan çox qorxduqları zaman aşkara çıxır. Lakin oğlanlar ayrılığa daha güclü reaksiya verirlər, ona görə də əksər hissəsi erkən yaşlarında uşaq bağçasına getmək istəmir. Utancaqlıq mehriban, güzəştə gedən, yumşaq xasiyyətli uşaqlara daha çox xasdır. Uşaqlarda utancaqlıq, xüsusən də qızlarda müəyyən dərəcədə valideynlərin şəxsiyyətindən və xarakterindən də asılıdır.**

Psixoloqlar müəyyənləşdirib ki, ünsiyyəti sevməyən, özünə arxayın olan, həyəcanlı, vasvası xarakterə malik, zahirən ciddi, əslində isə uşaqla formal tərbiyə və münasibət metodlarına əsaslanan qaraqabaq valideynlərin uşaqlarında utancaqlığa daha çox təsadüf edilir.

## Qoroskop




**QOÇ** - Qərarlarınızda qətiyyətli olmasanız, qarşınıza çıxan mühüm şansları itirəcəksiniz. Risk etməkdən qorxmayın. Hər şeydən əlinizi üzəndə heç olmasa sevgi amilindən bəhrələnin.

**BUĞA** - Astroloji göstəricilər düşərli bir gün yaşayacağınızı bəyan edir. Ətrafınızda hər şey gözəl olacaq. Amma vaxt tapıb müqəddəs ziyarətgahlarımıza da baş çəkməyə çalışın.

**ƏKİZLƏR** - Hansısa xoşgəlməzlik haqqında düşünməyə dəyməz. Çünki ulduzların düzümü günün əksər saatlarını xoş ovqatda keçirəcəyinizi bildirir. Təzə xəbərlər və pul da gözlənilir.

**XƏRÇƏNG** - Həddindən ziyadə məhsuldar gündür. Nəzərdə tutduğunuz planların əksəriyyətini reallaşdıra biləcəksiniz. Yeni təkliflərə razılıq verin. Əks təqdirdə, müttəfiqlərinizi itirəcəksiniz.

**ŞİR** - Təxminən saat 13-ə qədər ümumi əhvalınızda gərginlik müşahidə olunsa da, sonrakı müddəti normal şəkildə başa vura biləcəksiniz. Bütün iş və görüşlərinizdə Allahı yaddan çıxarmayın.

**QIZ** - Avqustun ən dəyərli günlərindən birini yaşayacaqsınız. Atdığınız addımlar ətrafda sizə qarşı böyük rəğbət yaradacaq. Amma unutmayın ki, gün ərzində mənfi enerjili Ay bürcünüzdə qərar tutacaq.

**TƏRƏZİ** - Yaxşı olar ki, vaxtınızı bütünlüklə istirahətə həsr edəsiniz. Çünki hesablamalar fəaliyyətdə passivliyin hökm sürəcəyini göstərir. Qonaq getməyə, əylənməyə səy göstərin, hündür yerə çıxmayın.

**ƏQRƏB** - Ailə-sevgi münasibətlərində bütün proseslər ürəyinizcə olacaq. Bu səbəbdən də qarşı tərəfin rəylərinə hörmətlə yanaşmalısınız. Yeni sövdələşmələrdə təşəbbüskarlığı ələ alın.

**OXATAN** - Hiss olunur ki, ətrafınızda olanların əksəriyyəti fikirlərinizə qarşıdır. Lakin bunu əsəbi şəkildə qəbul etməməlisiniz. Sübut edin ki, haqqınızda deyilənlər doğru deyil.

**OĞLAQ** - O qədər də səmərəli təqvim deyil. Bir tərəfdən cəhdlərinizin boşa çıxması, digər tərəfdənsə səhhətinizlə bağlı problemlərin baş qaldırması əsəblərinizə mənfi təsir göstərə bilər.

**SUTÖKƏN** - Bəxtinizdə müəyyən qədər mübahisəli bir tarix durur. Odur ki, istər evdə, istərsə də iş yerində çılğınlıqdan uzaq olmalısınız. Konflikt yaratmaqdansa, barışdırıcı mövqe seçin.

**BALIQLAR** - Yeni simalarla rastlaşma ehtimalınız böyükdür. Ola bilsin ki, qarşılaşdığınız adamların bir çoxu mövcud problemlərinizin həllində əsaslı rol oynasın. Odur ki, buna hazır olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Kök qadınlar arıq həmcinslərindən 8 il az yaşayır

**Rusiya mətbuatının yazdığına görə, kök qadınların qocalmadan ölmək riski nərmə-nazik qadınlarla müqayisədə düz 2 dəfə artıqdır. Eksperiment zamanı alimlər yaşı 20-80 arasında olan təxminən 5000 qadını müayinə edib.**



Məlum olub ki, kök qadınların 60 yaşadək yaşamaq şansı daha azdır. Əgər artıq çəki hələ gənc yaşlardan yığılıbsa, bu zaman risk daha da yüksəkdir. Alimlər bildirir ki, bütün ömrü boyu artıq çəkidən əziyyət çəkən xanımlar digərləri ilə müqayisədə təxminən 8 il az yaşayır.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750